

Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

AZƏRBAYCAN VERGİLƏR NAZİRLİYİ

№ 45 (785) ▪ 18 noyabr 2015 www.vergiler.az Qiymətı: 40 qəp.

# «Böyük İyirmiliyin» Antalya Sammiti başa çatıb

## Azərbaycanın dövlət başçısı Sammitdə iştirak edib

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva «Böyük İyirmiliyin» (G20) Antalya şəhərində keçirilən Sammitində iştirak etmək üçün noyabrın 14-də Türkiyə Respublikasına işgüzar səfərə gəliblər. Antalyanın beynəlxalq aeroportunda Azərbaycan Prezidentini və xanımını Türkiyənin yüksək vəzifəli dövlət və hökumət nümayəndələri qarşılayıblar.*

Noyabrın 14-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın və xanımı Əminə Ərdoğanın adından «Böyük İyirmiliyin» (G20) Antalya şəhərində keçirilən Sammitində iştirak edən dövlət və hökumət başçılarının, beynəlxalq təşkilatların rəhbərlərinin və onların xanımlarının şərəfinə nahar verilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva naharda iştirak ediblər.



Noyabrın 15-də Türkiyənin Antalya şəhərində «Böyük İyirmilik» ölkələri liderlərinin Sammiti öz işinə başlayıb. Sammitin gündəliyinə qlobal iqtisadiyyat məsələləri ilə yanaşı, terrorçuluğa qarşı mübarizə, qaçqın problemi kimi aktual mövzular da daxil edilib. Sayca onuncu dəfə keçirilən bu Sammitdə Azərbaycan xüsusi dəvətli qonaq statusunda təmsil olunub. Ölkəmizin bu Sammitdə iştirakına böyük əhəmiyyət verilir. Çünki Azərbaycan güclü iqtisadi potensiala malik ölkə və sabitlik adası kimi Qərbin, ümumiyyətlə, dünyanın diqqət mərkəzindədir. Etibarlı tərəfdaş kimi Azərbaycan regionla yanaşı, dünya iqtisadiyyatına da böyük töhfələr verir.

«G20»nin Antalya Sammiti Ankara və Parisdə törədilmiş terror aktları qurbanlarının xatirəsinin yad olunması ilə başlayıb. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bildirib ki, Fransa paytaxtında baş verən terror hadisəsi iqtisadiyyat və təhlükəsizlik arasındakı əlaqənin birbiri ilə sıx bağlı olduğunu göstərir. Son illər Suriyada, bu ilin son dörd ayında Türkiyədə, daha sonra Fransada törədilən terror aktları göstərdi ki, terrorizm bütün dünyada sülh və təhlükəsizliyə təhdid olmaqda davam edir. Terrorla mübarizədə qəti addımlar atılmalıdır və bu baxımdan Antalya Sammiti xüsusi əhəmiyyət daşıyır. Türkiyə Prezidenti bildirib ki, «Böyük İyirmiliyin» diqqət mərkəzində əsasən iqtisadiyyat, siyasət, sosial məsələlər olsa da, insan amili məsələsini bunlardan ayırmaq düzgün deyil. Son hadisələr bir daha göstərir ki, dünyada sülhün bərqərar olması üçün əməkdaşlığı gücləndirməliyik. Prezident Rəcəb Tayyib Ərdoğan diqqəti humanitar problemə çevrilmiş və ağır nəticələr verən qaçqın böhranına yönəldib: «Qaçqın məsələsi beynəlxalq səviyyədə müzakirə olunmalı və bu sahədə əməkdaşlıq daha da möhkəmləndirilməlidir. Beynəlxalq birliyin bu sahədə fəaliyyəti lazımi səviyyədə deyil. «G20»nin Antalya Sammiti bu məsələnin həllində tarixi rol oynaya bilər».

Türkiyə dövlətinin başçısı təəssüflə vurğulayıb ki, «G20»nin Sammiti təkcə böhran zamanlarında xatırlanacaq bir platforma olmamalıdır. Qlobal iqtisadi böhranın başladığı 2008-ci ildən bəri bu problemi həll etmək mümkün olmur. Atılan bütün addımlara baxmayaraq, hələ də güclü iqtisadi uğurlara nail olunmayıb. Bu baxımdan, beynəlxalq birliyin atacağı addımlar getdikcə daha çox əhəmiyyət kəsb edir.

Azərbaycan Prezidenti İlham Əliyev Sammit çərçivəsində iqtisadi inkişaf, sərmayələr, məşğulluq mövzularında keçirilən müzakirələrdə çıxış edib. Dövlətimizin başçısı son vaxtlar Türkiyədə və Fransada baş vermiş terror aktları ilə əlaqədar bu ölkələrin xalqlarına başsağlığı verib və deyib ki, Azərbaycan Türkiyənin və Fransanın yanındadır. Prezident İlham Əliyev çıxışında son illər Azərbaycanın iqtisadi inkişaf yolunda əldə etdiyi mühüm nailiyyətləri diqqətə çatdırıb, ölkəmizdə yaradılmış əlverişli sərmayə mühiti, işsizliyin aradan qaldırılması, yoxsulluğun kəskin şəkildə azaldılması istiqamətində görülən işlərdən danışıb.

«Böyük İyirmiliyin» Sammitində iştirak edən dövlət və hökumət başçılarının, beynəlxalq təşkilatların rəhbərlərinin şərəfinə verilən işçi naharda terrorizmə qarşı mübarizə və qaçqınlar böhranı mövzusunda müzakirələr aparılıb. Azərbaycan Prezidenti İlham Əliyev müzakirələrdə çıxış edib.Dövlətimizin başçısı bildirib ki, Azərbaycan beynəlxalq terrorizmlə mübarizədə fəal iştirak edir, Əfqanıstanda koalisiya qüvvələrinin işinə qoşulan ilk ölkələrdən biri olub. Prezident İlham Əliyev, eyni zamanda, qeyd edib ki, Azərbaycan özü terrorizmdən əziyyət çəkən ölkələrdəndir və bu terrorizm Ermənistanın Azərbaycana qarşı işğalçı siyasətinin tərkib hissəsidir. Ermənistanın terror təşkilatı tərəfindən Azərbaycanda törədilən terror aktları nəticəsində iki mindən çox Azərbaycan vətəndaşı həlak olub. Azərbaycan torpaqlarının işğalı məsələsinə toxunan Prezident İlham Əliyev qeyd edib ki, Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində ölkəmizin ərazisinin 20 faizi zəbt olunub, xalqımıza qarşı etnik təmizləmə siyasəti həyata keçirilib. İşğal nəticəsində Azərbaycan humanitar fəlakətlə üzləşib, bir milyona yaxın soydaşımız öz doğma torpaqlarından didərgin düşüb. BMT Təhlükəsizlik Şurasının 20 ildən çoxdur ki, Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnamə qəbul etməsinə baxmayaraq, Ermənistan tərəfi indiyədək buna məhəl qoymur. Prezident İlham Əliyev dövlət başçılarının diqqətini dünyanın bir nömrəli beynəlxalq təşkilatının qəbul etdiyi qərarlara Ermənistan tərəfindən əməl olunmaması faktına cəlb edib. Dövlətimizin başçısı vurğulayıb ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi yalnız və yalnız beynəlxalq hüquq normalarına uyğun, Azərbaycanın ərazi bütövlüyü əsasında həll olunmalıdır.

# BMT-nin mükafatı Azərbaycan Prezidentinə təqdim olunub



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 12-də BMT-nin Əhali Fondunun icraçı direktoru, BMT baş katibinin müavini Babatunde Osotimehini qəbul edib. BMT ilə uğurlu əməkdaşlığa görə dövlətimizin başçısına minnətdarlığını bildirən Babatunde Osotimehin əlaqələrimizin inkişaf etdirilməsinə Azərbaycan hökuməti tərəfindən yaradılan şəraitdən məmnunluğunu ifadə edib. Ölkəmizin əlverişli coğrafi mövqeyinə və əldə etdiyi uğurlara toxunan qonaq Azərbaycanın regionda sülh və təhlükəsizliyin möhkəmləndirilməsi baxımından da rolunu vurğulayıb. Təmsil etdiyi təşkilatın Azərbaycan ilə əməkdaşlığın genişləndirilməsində maraqlı olduğunu bildirən B.Osotimehin birgə proqramların hazırlanmasının və BMT-nin müxtəlif təsisatları ilə əməkdaşlığın əhəmiyyətini qeyd edib.

Dövlətimizin başçısı ölkəmiz haqqında və əldə olunan nailiyyətlərlə bağlı dediyi xoş sözlərə görə BMT-nin nümayəndəsinə təşəkkürünü bildirib. Prezident İlham Əliyev Azərbaycanın müstəqilliyini bərpa etməsindən ötən müddət ərzində sosial siyasətin həmişə prioritet məsələlərdən biri olduğunu və əsas diqqətin ölkənin ehtiyaclarının ödənilməsinə yönəldiyini qeyd edib. Sosial siyasətin icra olunmasında iqtisadiyyatın rolunu xüsusi qeyd edən dövlətimizin başçısı bildirib ki, güclü iqtisadiyyat olmadan sosial proqramların həyata keçirilməsi mümkün deyil. Azərbaycanda insanların gündəlik həyatına mənfi təsir göstərmədən iqtisadi islahatlar həyata keçirilməklə sosial proqramlar da paralel olaraq icra edilir və nəticədə iqtisadiyyat gücləndikcə insanların həyat şəraiti də yaxşılaşmağa başlayır. Prezident İlham Əliyev Azərbaycanın BMT və onun ayrı-ayrı təsisatları ilə əməkdaşlığı müxtəlif sahələrdə genişləndirməkdə maraqlı olduğunu diqqətə çatdırıb.

Sonra Babatunde Osotimehin BMT-nin 1994-cü ildə Qahirədə keçirilən əhali və inkişaf üzrə Beynəlxalq konfransından irəli gələn məsələlərin reallaşdırılmasında siyasi iradə, yorulmaz fəaliyyət və böyük səylər göstərdiyinə, eləcə də Davamlı İnkişaf Proqramının Azərbaycanda dəstəklənməsi, o cümlədən qadınların və gənclərin sağlam həyat şəraiti imkanlarının genişləndirilməsi istiqamətindəki xidmətlərinə görə BMT-nin Əhali Fondu adından mükafatı Prezident İlham Əliyevə təqdim edib.

# Mövcud iqtisadi inkişaf ölkəmizin hərbi qüdrətini daha da artırır

Noyabrın 11-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Müdafiə Nazirliyinin Hərbi-Hava Qüvvələrinin «N» saylı hərbi hissəsinin hərbi şəhərciyində yaradılan şəraitlə tanış olub.

Əsgər yeməkxanasında və əsgər yataqxanasında olan dövlətimizin başçısına bildirilib ki, bütün ərazi tam mühafizə olunur və nəzarətdədir. Quraşdırılan xüsusi kameralar kənar şəxslər əraziyə daxil olarkən həmin istiqamətə yönəlir və avtomatik siqnalizasiya işə düşür. Müdafiə Nazirliyinin Hərbi-Hava Qüvvələrinin «N» saylı hərbi hissəsinin hərbi şəhərciyində yaradılan şərait bir daha təsdiq edir ki, Azərbaycan dövlətinin iqtisadi qüdrəti artdıqca hərbi sahənin daha da müasirləşdirilməsi, əsgər və zabitlərin xidmət şəraitlərinin yaxşılaşdırılması, onların hərbin sirlərinə dərindən yiyələnmələri istiqamətində mühüm layihələr yerinə yetirilir.




Sonra Ali Baş Komandan hərbi hissənin raket anbarına baxıb. Dövlətimizin başçısı S-300 PMU-2 Favorit zenit raket briqadasına baxış keçirib, şəxsi heyətin praktiki fəaliyyəti və döyüş növbətçiliyi ilə tanış olub. Dövlətimizin başçısı bu il sentyabrın 15-də cəbhənin Ağdam istiqamətində Ermənistanın hərbçilərimiz tərəfindən məhv edilmiş X-55 pilotsuz uçan aparatının qalıqlarına da baxıb.

Ali Baş Komandana Müdafiə Nazirliyinin Hərbi-Hava Qüvvələrinin bir sıra hərbi texnikası barədə məlumat verilib. Bildirilib ki, döyüşün idarəetmə məntəqəsi də ən müasir hərbi avadanlıqla təchiz edilib.

Dövlətimizin başçısı təlim-məşq kompleksi ilə də tanış olub. Sonra Azərbaycan Prezidenti, Ali Baş Komandan raketlərin start mövqeyinə gəlib, burada atıcı qurğulara baxıb.

## BU NÖMRƏMİZDƏ

ON AYIN YEKUNLARINA HƏSR OLUNMUŞ MƏTBUAT KONFRANSI 2

BƏLƏDİYYƏ VERGİLƏRİNİN YIĞIMINDA MÖVCUD PROBLEMLƏR VƏ HƏLLİ YOLLARI 3

«DOING BUSINESS-2016» HESABATINDA VERGİ MƏSƏLƏLƏRİ 4

ELM VƏ İQTİSADİYYATIN VƏHDƏTİ 5

# On ayın yekunlarına həsr olunmuş mətbuat konfransı

Noyabr ayının 17-də Vergilər Nazirliyində vergilər nazirinin 1-ci müavini, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri Natiq Əmirov 2015-ci ilin oktyabr ayının 12-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə keçirilmiş Nazirlər Kabinetinin iclasında verilmiş tapşırıqların icra vəziyyəti və cari ilin 10 ayı ərzində vergi orqanları tərəfindən görülmüş işlərlə bağlı mətbuat konfransı keçirmişdir.

Ölkənin aparıcı KİV nümayəndələrinin iştirak etdikləri mətbuat konfransında bildirilmişdir ki, ölkə başçısının qətiyyətlə həyata keçirdiyi dövlət quruculuğu prosesi 2015-ci ildə də uğurla davam etdirilmiş, sosial-iqtisadi sahədə bir sıra nailiyyətlər əldə olunmuşdur. Bu ilin 10 ayı ərzində Vergilər Nazirliyi tərəfindən dövlət büdcəsinə 5 milyard 970 milyon 247 manat vəsaitin toplanması təmin olunmuş, proqnoz tapşırığına 100,1 faiz əməl edilmişdir. Təkcə oktyabr ayında Vergilər Nazirliyinin xətti ilə büdcəyə 899 milyon 971 min manatdan artıq vəsait daxil olmuşdur: «Ay ərzində dövlət büdcəsinə qeyri-neft sektoru üzrə 136 milyon manat əlavə vergi daxilolmaları təmin edilmişdir. Ümumilikdə isə cari ilin 10 ayında qeyri-neft sektoru üzrə vergi daxilolmaları ötən ilin müvafiq dövrü ilə müqayisədə 542 milyon manat çox olmuşdur».

Vergilər nazirinin müavini qeyd etmişdir ki, yanvar-oktyabr ayları ərzində vergi daxilolmaları respublikanın bütün rayonları üzrə 100 faiz həcmində yerinə yetirilmişdir. 2015-ci ildən Sumqayıt, Mingəçevir, Abşeron, Şirvan, İmişli kimi şəhər və rayonlar öz büdcələrini tamamilə yerli gəlirlər hesabına təmin edirlər ki, bu da regionlarda qeyri-neft sektorunun inkişafı, vergi potensialının genişləndirilməsi və daxili gəlirlərin artması hesabına baş vermişdir. 2016-cı ildən isə Naftalan şəhəri də öz büdcəsini yerli gəlirlər hesabına təmin edən şəhər sırasına daxil olacaq.

Vergi orqanlarında həyata keçirilən islahatlara toxunan N.Əmirov cari ildə vergi qanunvericiliyi və inzibatçılığının təkmilləşdirilməsi, müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqi, elektron xidmətlərin genişləndirilməsi istiqamətində tədbirlərin davam etdirildiyini bildirmişdir.

Qeyd edilmişdir ki, dövlət büdcəsinin gəlirləri üzrə proqnoz göstəricilərinin icrası ilə yanaşı, sahibkarlığın inkişafı, xüsusilə də kiçik və orta biznesin fəaliyyətinin genişləndirilməsi vergi orqanlarının qarşısında duran əsas vəzifələrdəndir. Bununla yanaşı, kiçik dövriyyəyə malik sahibkarlıq subyektlərinə münasibətdə vergi orqanları daha çox tərəfdaş kimi çıxış etməyə çalışır, bu qəbildən olan vergi ödəyicilərində aparılan yoxlamaların sayının minimuma endirilməsi üçün tədbirlər görülür: «Ölkə başçısının Nazirlər Kabinetinin son iclasındakı çıxışı və orada verilmiş tapşırıqlara uyğun olaraq, Vergilər Nazirliyinin kollegiyasının qərarı ilə illik dövriyyəsi 120 min manatdan aşağı olan sahibkarlıq subyektlərində səyyar vergi yoxlamalarının və operativ nəzarət tədbirlərinin keçirilməsi - əmək müqavilələrinin bağlanmasına və aksizli məhsulların satışı zamanı aksizlərin tətbiqinə nəzarət və dövriyyənin müəyyənləşdirilməsi üçün xronometraj metodu ilə müşahidələrin aparılması istisna olmaqla - dayandırılmışdır».






Bildirilmişdir ki, vergi ödəyicilərinə göstərilən xidmətlərin səmərəliliyinin artırılması, kiçik və orta sahibkarlara göstərilən ünvanlı xidmətlərin genişləndirilməsi, regionlarda çalışan sahibkarlara vergi öhdəliklərinin yerinə yetirilməsində hüquqi, texniki və əməli xidmətlərin göstərilməsi, partnyorluq münasibətlərinin dərinləşdirilməsi, keçirilmiş səyyar vergi yoxlamaları və operativ nəzarət tədbirlərinin nəticələri üzrə aktların təhlil edilməsi, əsassız və nəticəsi olmayan yoxlamalarla bağlı müvafiq araşdırmaların aparılması və bu sahədə nöqsanlara yol vermiş vergi orqanı əməkdaşlarının məsuliyyət məsələsinə baxılması istiqamətində ciddi tədbirlər görülür: «Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin vergi orqanları qarşısında qoyduğu vəzifələrin icrasını təmin etmək məqsədilə vergitutma bazasının genişləndirilməsi, mövcud vergi potensialından daha səmərəli istifadə olunması üçün hərtərəfli iqtisadi təhlillər aparılaraq, aidiyyəti dövlət orqanlarına konkret təkliflər verilmişdir. Vergi Məcəlləsinə təklif edilən dəyişikliklər Milli Məclisdə müzakirəyə çıxarılaraq qəbul olunmuş, imzalanmaq üçün dövlət başçısına təqdim edilmişdir».

Vergi orqanlarında vətəndaş müraciətlərinə baxılması vəziyyətinə toxunan N.Əmirov vurğulamışdır ki, son vaxtlar ölkə vətəndaşlarının ictimai fəallığı xeyli artmışdır. Əvvəlki illərdən fərqli olaraq, vergi ödəyiciləri nazirliyə və yerli vergi orqanlarına daha çox konkret məsələlərlə bağlı müraciət edirlər, vergidən yayınma halları barədə vergi orqanlarına məlumat verməklə öz vətəndaşlıq borclarını yerinə yetirirlər.

Qeyd olunmuşdur ki, vergi orqanlarının üzərinə düşən vəzifələr kifayət qədər çətin və mürəkkəb olsa da, nazirliyin rəhbərliyinin mövqeyi belədir ki, cənab Prezidentin verdiyi tapşırıqlar tam həcmdə icra ediləcəkdir.

Sonda N.Əmirov vergi orqanları qarşısında qoyulmuş vəzifələrin icrasında, yüksək vergi mədəniyyətinin formalaşmasında KİV nümayəndələrinin müsbət rolunu xüsusi vurğulayaraq, nazirliyin rəhbərliyi adından onlara təşəkkürünü bildirmiş və sualları cavablandırmışdır.

# Vətəndaş müraciətlərinin 51,9%-i müsbət həll olunub

2015-ci ilin oktyabr ayı ərzində vergi orqanlarına 10.250 müraciət daxil olmuşdur ki, bunlardan da 95,8%-i ərizə, 4%-i şikayət, 0,2%-i təklifdir.

Müraciətlərin 45,8%-i kameral vergi yoxlamaları, 6,6%-i vergi borcları, 1,7%-i operativ vergi nəzarəti, 1,6%-i səyyar vergi yoxlamaları, 1,4%-i vergidən yayınma və dividendlərin verilməsi, 0,7%-i vergi orqanlarının vəzifəli şəxslərinin hərəkəti (hərəkətsizliyi), 0,4%-i korrupsiya hüquqpozmaları, 41,85%-i digər məsələlərlə bağlı olmuşdur.

Daxil olmuş müraciətlərin 51,9%-i müsbət həll olunmuş, 15,3%-i barədə müvafiq izahatlar verilmiş, 2,3%-i əsassız sayılmış, 0,4%-i qismən həll edilmiş, 0,4%-i aidiyyəti üzrə göndərilmiş, 29,7%-i isə icradadır.

Hesabat dövründə vergi orqanları tərəfindən ümumilikdə 501 vətəndaş qəbul edilərək, onlara mövcud qanunvericilik çərçivəsində lazımi kömək göstərilmiş və ya müvafiq izahatlar verilmişdir.

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin respublikanın şəhər və rayonlarında vətəndaşların qəbulu qrafikinə əsasən, oktyabrın 23-də vergilər naziri Fazil Məmmədov tərəfindən Beyləqan rayonunda vətəndaşların qəbulu keçirilmişdir.

# Vergi bəyannaməsini telefon zəngi ilə də təqdim etmək mümkündür

Vergi sahəsində son illərin maraq doğuran xidmətlərindən biri mobil rəqəmsal identifikasiya, başqa sözlə, «ASAN imza»dır. «ASAN imza» vətəndaşın öz mobil telefonundan istifadə edərək bu və ya digər elektron xidmətdən asanlıqla və təhlükəsiz yararlanmasına imkan verir.

Vergilər Nazirliyinin Çağrı Mərkəzi tərəfindən «ASAN imza»dan istifadə edilməklə vergi ödəyicilərinin istifadəsinə verilmiş yeni nəsil elektron xidmətlərin əhatə dairəsi getdikcə genişlənir. Çağrı Mərkəzinin rəisi Nurlan Bayramlının sözlərinə görə, artıq «ASAN imza»sı olan vergi ödəyicilərinin sadələşdirilmiş vergi bəyannamələrinin göndərilməsi üçün vergi orqanına gətməlrinə ehtiyac yoxdur: «Vergi ödəyicisi öz «ASAN imza»sından istifadə etməklə bəyannamələrini bir telefon zəngi vasitəsilə göndərə bilir. Bunun üçün «195» Çağrı Mərkəzinə zəng etmək kifayətdir. Zəngi qəbul edəcək Mərkəzin təmsilçisinə «ASAN imza» nömrəsini, istifadəçi İD-sini və dövriyyə barədə məlumatı bildirməklə vergi ödəyicisi mobil telefonuna SMS şəklində gələn vergi bəyannaməsinin məlumatları ilə tanış olduqdan sonra «ASAN imza» PİN2 kodunu mobil telefonuna daxil edərək bəyannaməni imzalayır və sənəd sistem tərəfindən qəbul olunur. Paralel olaraq, icra edilmiş əməliyyat barədə məlumatlar avtomatik şəkildə vergi ödəyicisinin İnternet Vergi İdarəsində olan elektron qutusuna göndərilir».

Hazırda Çağrı Mərkəzi vasitəsilə fiziki şəxsin onlayn qeydiyyatı və şəhadətnamə-dublikatın alınması üçün ərizənin göndərilməsi xidmətlərinin tətbiqi istiqamətində işlər davam etdirilir.

**FƏXRİYYƏ**

# Vergi xidməti əməkdaşları üçün təlim

Dövlət vergi orqanlarında xidmət edən vəzifəli şəxslərin idarəetmə sahəsində peşəkarlığının artırılması məqsədilə Vergilər Nazirliyinin Şamaxı rayonunda yerləşən Tədris Mərkəzində təlim keçirilib. «İnsan resurslarının inkişafı sahəsində Azərbaycan Respublikası Vergilər Nazirliyinə dəstək» Tvinninq layihəsi çərçivəsində təşkil olunan beşgünlük tədbirdə «Liderlik və qərarvermə», «Komanda işi: yüksək səmərə və məhsuldar komanda», «Vaxtın idarə edilməsi» və digər mövzular üzrə beynəlxalq təcrübədən məlum olan ən müasir biliklər təqdim edilib. Təlimin əsas aparıcıları İspaniyanın idarəetmə sahəsində tanınmış mütəxəssislər Luis Kremades Uqarte və Mariano Rojo olublar. Təlimlərdə «e-öyrənmə», bilik, biliklərin ötürülməsi mexanizmləri, vergi inzibatçılığının səmərəlilik göstəricilərinin artımı, motivasiya və təşviq əsasında işçilərin yüksək fərdi nailiyyətlərinin artırılması, karyerada irəliləyiş, təlim və tədris proseslərinin təşkili sahələrində tətbiq olunan yeniliklər və digər məsələlər barədə müzakirələr aparılıb.

«Liderlik və qərarvermə» mövzusunda müzakirələr zamanı vurğulanıb ki, idarəetmənin təkmilləşdirilməsində mühüm rol oynayan liderliyin başlıca şərti özünəinam və səlahiyyətdir. Bu isə istək, öyrənmə, yaradıcılıq, effektiv ünsiyyət, komanda ilə işləmək və başqalarına xidmət mərhələlərini əhatə edir. Liderliyin etibarlılığını və prinsiplərini səciyyələndirən əsas keyfiyyət işi yerinə yetirmək, rasionallıq və nəzarət, problemlərin qısa müddətdə həlli, uğurlu nəticələrə nail olmaqdır. Liderin başlıca keyfiyyətləri gələcəyi görən, ruhlandırıcı, komanda qurucusu, biznes və işə «can yandıran», hədəf və məqsədləri təyin edən və s. faktorlarla xarakterizə olunur. Liderlikdə avtoritar üsul pis nəticə kimi qiymətləndirilir. Komanda ilə işləmək isə ən uğurlu yoldur və hər hansı məsələdə qalibiyyəti təmin edir.

«Komanda işi: yüksək səmərə və məhsuldar komanda» mövzusunda diqqət ona yönəldilib ki, hər bir komandada müəyyən bir iş sahəsində təyin olunmuş hədəflərə çatmaq üçün bir qrup insanın birgə çalışması əsas şərtdir. Qrup işinin nəticəsi isə qrup üzvlərinin fərdi şəkildə göstərdiyi məhsuldarlıqdır. Məhsuldarlıq təşkilatlarda məlumatları, fikirləri bölüşmək, öz işini daha yaxşı görə bilmək üçün hər kəsə qərar verməkdə yardım göstərmək, fərdi məhsuldarlıq standartlarını yaxşılaşdırmaqla əldə olunur. Ümumi hədəf və məqsədlərə malik olan, ortaq iş yanaşması və qarşılıqlı məsuliyyətləri olan bir qrup insanın birgə fəaliyyəti sayəsində yüksək məhsuldarlıq göstərən komanda təşkil olunur.

«Vaxtın idarə edilməsi və ünsiyyət» mövzusunda təqdimat idarəetmə sahəsində vaxt amilinə həsr olunub. Vaxtı səmərəli idarə etmək üçün qısa, orta və uzunmüddətli hədəfləri müəyyənləşdirmək, prioritetləri düzgün təyin etmək, müvafiq planlaşdırma və proqramlaşdırma aparmaq lazımdır. Düzgün və səmərəli istifadə olunan vaxt komandada iş fəaliyyətinin ahəngdarlığına müsbət təsir göstərir, işçilərin motivasiyasında da rol oynayır.

Canlı müzakirələr şəraitində öz işini başa çatdıran təlim iştirakçıları bu cür tədbirlərin vergi xidməti əməkdaşlarının idarəetmə sahəsində peşəkarlığının artırılmasında mühüm əhəmiyyətini vurğulayıblar.

**Elbrus CƏFƏRLİ**

# Təlim prosesi elektronlaşdırılır

Noyabrın 14-də Vergilər Nazirliyinin elektron kitabxanası «Onlayn təlim» sistemi üzrə «Dövlət vergi orqanlarının vəzifəli şəxsləri üçün vergi yoxlamalarının prosedurları» mövzusunda təlim təşkil edib.

Vergilər Nazirliyi yanında Bakı Vergilər Departamentinin Hüquq idarəsinin Məhkəmə işlərinin təşkili şöbəsinin hüquqşünası Xamis Seyranovun apardığı onlayn dərs «Sahibkarlıq sahəsində yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında» Qanun və onun əsasında qəbul edilmiş digər normativ hüquqi aktlar, yoxlamalar zamanı əldə olunmuş kommersiya (vergi) sirrini təşkil edən məlumatların qorunmasının təmin edilməsi məqsədilə Vergi Məcəlləsinin, «Kommersiya sirri haqqında» Azərbaycan Respublikası Qanununun və digər normativ hüquqi aktların müvafiq maddələri barədə olub.

Vergilər Nazirliyinin Tədris Mərkəzinin Vergi metodologiyası kafedrasının baş müəllimi Yaşar Dəmirov «Səyyar vergi yoxlaması zamanı keçirilən hüquqi hərəkətlər haqqında» vergilərin tam və vaxtında yığılmasını təmin etmək məqsədilə vergi nəzarətinin həyata keçirilməsi məsələlərinə aydınlıq gətirib.

Təlim müddətində təcrübədə daha çox rast gəlinən və vergi ödəyiciləri tərəfindən mübahisə obyektinə çevrilən məsələlər ətrafında müzakirələr aparılıb. Təlimin sonunda iştirakçıların onlayn rejimdə göndərdikləri suallar cavablandırılıb.

# Görülən işlər qiymətləndirilir

Noyabrın 12-də Vergilər Nazirliyi yanında Tədris-Metodiki Şuranın növbəti - 9-cu iclası keçirilmişdir. İclasda bu ilin ötən dövrü ərzində təlim-tədris sahəsində görülmüş işlər, «2015-ci ildə Vergilər Nazirliyində təhsilin inkişafına dair Tədbirlər Planı»nda nəzərdə tutulmuş tədbirlərin icra vəziyyəti, «İnsan resurslarının inkişafı üzrə Azərbaycan Respublikası Vergilər Nazirliyinə dəstək» Tvinninq layihəsi çərçivəsində tədris sisteminin təkmilləşdirilməsi məsələləri, insan resurslarının idarə edilməsində Fransa təcrübəsi barədə məlumat verilmişdir.

İclasda diqqət yönəldilən məsələlərdən biri də tətbiqinə yeni başlanılmış onlayn təlimlərlə bağlı olmuşdur. Qeyd edilmişdir ki, Vergilər Nazirliyinin elektron kitabxanası üzərindən həyata keçirilən onlayn təlimlər hələlik yalnız vergi orqanlarının əməkdaşları üçün nəzərdə tutulmuşdur. Gələcəkdə isə vergi ödəyiciləri üçün də onlayn təlimlər keçiləcək. Bu il həmçinin TAIEX proqramı çərçivəsində beynəlxalq ekspertlərin iştirakı ilə «Elektron ticarətin vergiyə cəlb edilməsi» və «Nağdsız ödənişlərin stimullaşdırılması» mövzularında təlimlər təşkil olunmuşdur.

Dövlət vergi orqanlarında xidmətə yeni qəbul edilmiş şəxslərin fəaliyyətinin istiqamətləndirilməsi məqsədilə 2015-ci ildə «Kuratorlar üçün təlim»lərə xüsusi yer verilmişdir. İlin əvvəlindən Vergilər Nazirliyində 6 ilkin hazırlıq, 12 ixtisasartırma kursu, eləcə də 37 təlim keçirilmiş, vergi orqanlarının vəzifəli şəxslərinin 57,8%-i tədris prosesinə cəlb edilmişdir.

İclasda Vergilər Nazirliyinin Tədris Mərkəzinin yeni yaradılmış rəsmi internet səhifəsi (www.tedris.taxes.gov.az) barədə məlumat verilmişdir.

# Bələdiyyə vergilərinin yığımında mövcud problemlər və həlli yolları



*Azərbaycanda yerli özünüidarəetmə orqanlarının fəaliyyəti, onların vergilərin yığılmasında qarşılaşdıqları problemlər, vətəndaşların üzləşdikləri çətinliklərin aradan qaldırılmasında görməli olduqları işlər və s. daim ictimaiyyətin diqqət mərkəzindədir. Öz aktuallığına görə hamını maraqlandıran bu və digər məsələlərə aydınlıq gətirmək məqsədilə Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş Mərkəzinin rəisi Mehdi Səlimzadəyə müraciət etdik.*

***- Mehdi müəllim, Vergi Məcəlləsinə edilmiş dəyişikliklərə əsasən, 2015-ci ilin yanvar ayından bələdiyyə vergilərinin yığılması üzrə bir sıra işlər görülməli idi. Xüsusilə bu sahədə nağdsız ödənişlə bağlı vəziyyət nə yerdədir?***

- Ölkəmiz inkişaf etdikcə dövlət və qeyri-dövlət qurumlarının fəaliyyətində yeni texnologiyalar tətbiq olunur, idarəetmə ən mütərəqqi üsullar səviyyəsində qurulur, əhali arasında müasir ödəniş mədəniyyəti formalaşır. «Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında» Qanuna edilən dəyişiklikdən sonra yerli vergi və ödənişlər banklar, poçt rabitəsinin milli operatoru, habelə mövcud nağdsız ödəmə vasitələri ilə həyata keçirilir. Bəzi bələdiyyələr POS-terminallardan istifadə edərək vergilərin yığımını həyata keçirməyə çalışırlar. Vətəndaşlar da rahat şəkildə vergini yerindəcə ödəyir və çeklərini əldə etmək imkanı qazanırlar. Rayonlarda bu proseslər poçt şöbələrində də həyata keçirilir.

Ancaq bir məsələni qeyd etmək istərdim ki, bu prosesi uğurla həyata keçirmək üçün bələdiyyələr mükəmməl infrastruktura malik olmalı, hazırlıq işləri, maarifləndirici tədbirlər görməlidir. «Əmlak vergisi: yeniliklər və problemlərin həlli yolları» mövzusunda bu yaxınlarda Nəsimi bələdiyyəsi ilə birgə tədbir keçirmişik. Vətəndaşların ödənişlərlə bağlı münasibəti dəyişməli, ödəniş mədəniyyəti formalaşdırılmalıdır. Xüsusilə də nağdsız ödəniş mədəniyyətinin lazımi səviyyədə olmadığı ucqar rayonlarda buna daha çox diqqət ayrılmalıdır.

Əvvəllər bələdiyyə üzvləri vergi ödəyiciləri ilə birbaşa təmas qurub vergiləri ala bilirdilərsə, indi sadəcə xəbərdarlıq edirlər ki, vergini ödə. Hər kəs vergini nağdsız qaydada ödəyəcəyinə söz versə də, heç də hamı sözünə əməl etmir. Vətəndaşların bələdiyyə vergilərinin ödənişində fəal olmaları üçün müxtəlif yollar axtarılmalıdır ki, problem aradan qalxsın.

Qanuna əsasən, bələdiyyə vergilərinə fiziki şəxslərin torpaq və əmlak vergisi, yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi və bələdiyyə mülkiyyətində olan hüquqi şəxslərin mənfəət vergisi aiddir. Yerli ödənişlərin tərkibinə bunlar daxildir:

- küçə (divar) reklamının yerləşdirilməsi və yayımı üçün ödənişlər;
- bələdiyyə mülkiyyətinin özgəninkiləşdirilməsindən, icarəyə və istifadəyə verilməsindən daxil olan ödənişlər;
- bələdiyyələrin ayırdığı torpaq sahələrində stasionar, səyyar ticarət, ictimai iaşə və digər xidmətlərə görə ödənişlər;
- mehmanxana, sanatoriya-kurort və turizm xidmətləri göstərən şəxslərdən alınan ödənişlər;
- hüquqi və fiziki şəxslərə məxsus ixtisaslaşdırılmış avtomobil dayanacaqları üçün ödənişlər.

Təəssüflə vurğulamaq lazımdır ki, bir sıra bələdiyyələr ötən illərdə vergitutma sahəsində ciddi nəticələr əldə edə bilməyiblər. Bu da onlara səlahiyyətləri çərçivəsində normal fəaliyyət göstərməyə imkan vermir. Bələdiyyələrin ərazisində çoxlu sayda sənədsiz evlər var. Yerli özünüidarəetmə orqanları bu əmlaklara görə vergi yığımını həyata keçirə bilmirlər. Çünki bu evlərin əmlak sənədləri yoxdur. Hesab edirəm ki, bələdiyyələrə elə bir səlahiyyət verilməlidir ki, evlərin sənədləşdirilməsində fəal iştirak edə bilsinlər.

***- Torpaqların sənədləşdirilməsi prosesində də kifayət qədər problemlər var...***

- Bu kimi problemlər bələdiyyərin inkişafına ciddi maneə yaratmaqla yanaşı, əhali və dövlət orqanları ilə münasibətdə də müəyyən çətinliklər ortaya çıxarır. Qüvvədə olan qanuna əsasən, bu işdə bələdiyyə sədrləri təkbaşına məsuliyyət daşımır, qərarlar kollegial şəkildə qəbul edilir.

Əsas problemlərdən biri bələdiyyə mülkiyyəti ilə bağlıdır. Qanunvericiliyə görə, bələdiyyə torpaqları müəyyənləşdirilməli və onların mülkiyyətinə verilməlidir. Bələdiyyə torpaqları onların mülkiyyətinə verilmiş olsa, bu, dövlət orqanları ilə vətəndaşlar arasında mübahisələrin və ciddi problemlərin ortadan qalxmasına gətirib çıxarar. Bu məsələ həll olunmadığı üçün bələdiyyələr öz mülkiyyətlərinin idarə olunmasında çətinliklərlə üzləşirlər. Eyni zamanda, əhalinin özəlləşdirmə ilə bağlı çətinlikləri də məhz bu problem ucbatından yubanır. Hazırda Əmlak Məsələləri üzrə Dövlət Komitəsi tərəfindən bu istiqamətdə araşdırmalar aparılır və müəyyən işlər görülür. Güman edirəm ki, bu işlər tezliklə tam həllini tapacaq.

***- Bir sıra ölkələrdə, o cümlədən qardaş Türkiyədə bələdiyyə vergiləri müəyyən müddətdə dövlət vergi orqanları tərəfindən yığılır. Belə bir təcrübənin respublikamızda da tətbiqi mümkündürmü?***

- Hələ ki, gündəlikdə belə bir məsələ yoxdur, amma nə vaxtsa bu mexanizmi tətbiq etməklə həm bələdiyyələrə aid vergilərin yığılmasında müsbət nəticə əldə etmək, həm də yığılan vəsaitlərin həcminin qat-qat yüksəlməsinə nail olmaq mümkündür.

Azərbaycanın vergi orqanları əməkdaşları vergi yığımı sahəsində peşəkar və çevik fəaliyyət təcrübəsinə malik olduqlarına görə, müəyyən bir dövr üzrə bələdiyyə vergilərinin yığımını onların səlahiyyətinə vermək olar. Dövlət vergi orqanlarının kadr potensialı, vergiyığma sahəsində böyük səriştəsi onu deməyə əsas verir ki, belə olan təqdirdə, bələdiyyə vergilərinin yığım əmsalını xeyli yüksəltmək mümkün ola bilər.

***- Təmsil etdiyiniz qurum bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti hansı formada həyata keçirir və qanunsuzluqlar aşkarlanarkən nə kimi tədbirlər görülür?***

- «Bələdiyyələrə inzibati nəzarət haqqında» Qanunun icrası Ədliyyə Nazrliyinə həvalə edilmişdir. Qanuna əsasən, bələdiyyələr qəbul etdikləri təqdim olunması mütləq sayılan və qanunla qeyd olunan qərarları 15 gün müddətində Ədliyyə Nazirliyinin Regional Ədliyyə Şöbələri vasitəsilə Bələdiyyələrlə İş Mərkəzinə təqdim etməlidirlər, bu tələbi yerinə yetirməyənlər barəsində müvafiq intizam tədbirləri görülür. Buna görə də qəbul olunan qərarlardakı qanunsuzluqların aradan qaldırılması diqqət mərkəzindədir. Bunlar və digər məsələlərlə bağlı qanunsuzluqlar aşkar olunduqda materiallar Baş Prokurorluğa göndərilir. Son 5 il ərzində Baş Prokurorluğa 190-a yaxın belə material göndərilmişdir və nəticədə 150 iş üzrə cinayət işi açılmış, 6 bələdiyyə sədri həbs edilmişdir.

Mərkəzin vacib fəaliyyət istiqamətlərindən biri də bələdiyyələrin maarifləndirilməsidir. Bu istiqamətdə onlara qanunvericiliyin tələbləri izah olunur, tövsiyə xarakterli məktublar göndərilir, metodiki vəsaitlər işlənib hazırlanır, seminarlar, kurslar təşkil edilir. Bələdiyyələr də öz növbəsində qanunsuzluqların aradan qaldırılması ilə bağlı mütəmadi olaraq bizə məlumat verirlər.

Vurğulamaq istərdim ki, 1999-cu ildə Azərbaycanda keçirilmiş ilk bələdiyyə seçkilərindən ötən 15 ilə yaxın müddətdə bələdiyyələr tam strukturlaşmışdır. Qazandıqları təcrübə əsasında qabaqcıl bələdiyyələr üzərlərinə düşən vəzifələrin icrasında fəallıq göstərirlər. Ölkənin sürətli inkişafında, əhalinin sosial rifahının yüksəlməsində yerli özünüidarəetmə orqanlarının rolu və iştirakı ildən-ilə artmaqdadır. Vətəndaşlar məhəlli idarəetmədə bələdiyyələrin hansı imkanlara malik olduğunu zaman keçdikcə daha yaxşı anlayır və mövcud problemlərin həlli ilə bağlı onlardan çox şey gözləyirlər. Bütün bunlar, indiyədək yol verilən bir sıra qüsurlara baxmayaraq, bələdiyyələrin fəaliyyəti barədə müəyyən müsbət qənaətə gəlməyə əsas verir.

***- Hər il bələdiyyələrə büdcədən müəyyən vəsaitlər ayrılır. 2015-ci ildən isə yerli özünüidarəetmə orqanlarına subvensiyalar verilir. Bu vəsaitlər hansı istiqamətlərə xərclənir?***

- Həllivacib problemlərin aradan qaldırılması üçün bələdiyyələrə büdcədən müəyyən yardımların ayrılması, təbii ki, çox yaxşı haldır. Ancaq burada da problemlər yaşanmaqdadır. Ayrılan vəsait birbaşa bələdiyyənin öz hesabına deyil, yerli maliyyə şöbələrinə köçürülür. İcra hakimiyyətləri isə bu vəsaiti bələdiyyələrə müxtəlif istiqamətlərə ödəmək haqqında göstəriş verirlər. Yəni bələdiyyələrin büdcəsində nəzərdə tutulmuş və qanunla müəyyənləşmiş istiqamətdə deyil, ayrılmış dotasiyalar başqa istiqamətlərə xərclənir. Nəticədə qanun pozuntusuna, neqativ halların, korrupsiya meyillərinin ortaya çıxmasına münbit şərait yaranır. Hesab edirəm ki, bu problemlər dərhal aradan qaldırılmalıdır. Subvensiyalara gəlincə, qeyd etməliyəm ki, büdcə zərfində bu məsələ qeyd olunsada öz həllini tapmayıb. Bu problemlər aradan qalxsa, ümid edirəm ki, bələdiyyələrin fəaliyyətində, onun inkişafında öz müsbət təsirini göstərər.

***- Yerli vergi və rüsumların toplanması işinin təkmilləşdirilməsi məqsədilə Vergilər Nazirliyinin təşəbbüsü ilə bir neçə yerli özünüidarəetmə orqanında «Bələdiyyə vegi informasiya sistemi» (BVİS) layihəsinin icrasına başlanmışdır. Bu layihə özünü doğrulda bilirmi?***

- Son illər Azərbaycanda dövlət qurumlarının fəaliyyətində şəffaflıq və hesabatlılığın artırılması və korrupsiyaya qarşı mübarizə sahəsində mühüm tədbirlər həyata keçirilmiş, habelə elektron hökumət quruculuğu və e-xidmətlər üzrə uğurlu nəticələr əldə olunmuşdur. Belə bir şəraitdə bələdiyyələrin fəaliyyətinin müasirləşdirilməsinə, xüsusilə də vergi və rüsumların toplanması işinin təkmilləşdirilməsinə obyektiv zərurət yaranmışdır. Ən çox elektron xidmətlər göstərən dövlət orqanı kimi, Vergilər Nazirliyi bu zərurətdən çıxış edərək, «Bələdiyyə vergi informasiya sistemi» layihəsinin reallaşdırılmasına başlamışdır. Belə bir layihənin həyata keçirilməsi həm də «Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyasının tələblərindən irəli gəlir. Layihə ilə ölkə bələdiyyələrinin «Bələdiyyə vergi informasiya sistemi»nə inteqrasiyası təmin ediləcəkdir. Yerli özünüidarəetmə orqanları bu sistemdən yararlanaraq onlayn kargüzarlıq, vergilərin ödənilməsinin və bəyannamələrin təqdim olunmasının elektron qaydada həyata keçirilməsi imkanları əldə edirlər.

***- Vətəndaşların inam və etimadını qazanmaq üçün bələdiyyələr əsasən hansı addımları atmalıdırlar?***

- Bələdiyyələr qəbul etdikləri qərarlar, gördükləri işlər barədə vətəndaşlar qarşısında hesabat verməlidirlər. İnsanlarla mütəmadi görüşlər keçirilməli, onların problemləri öyrənilməli və həlli yolları araşdırılmalıdır. Bir sözlə, bələdiyyələr əhali ilə daha yaxından təmasda olmalı, onların problemlərinə qarşı həssaslıq göstərərək köməyini əsirgəməməli, yerlərdə infrastrukturun bərpası və yenidən qurulmasına diqqət göstərməlidirlər. Yerli özünüidarəetmə orqanları hansısa məsələ ilə bağlı imkanlarının məhdud olduğu halda, müvafiq icra qurumları qarşısında məsələ qaldırıb problemin həllinə nail olmalıdırlar.

**Müsahibəni hazırladı:**
**Rəşad SADIQOV**

# Vergi bəyannamələrinin doldurulma metodları müzakirə olunub

Avropadaxili Vergi Administrasiyaları Təşkilatı (IOTA) Danimarka Krallığının paytaxtı Kopenhagen şəhərində «Vergi bəyannaməsi: əvvəlcədən doldurulmuş və təqdim edilməmiş - mövcud metodlar və perspektivlər» mövzusunda seminar keçirmişdir. Tədbirin məqsədi vergi bəyannamələrinin əvvəlcədən doldurulması imkanlarının təşviqi, bu vasitədən istifadə etməklə vergi ödəyicisinin müəyyən olunması, eləcə də «üçüncü tərəflər» vasitəsilə məlumatların əldə edilməsində qabaqcıl təcrübələrin mübadiləsi olmuşdur.

20-dən çox ölkənin nümayəndələrinin qatıldığı seminarda Vergilər Nazirliyi yanında Bakı Vergilər Departamentinin Auditin təşkili şöbəsinin böyük dövlət vergi müfəttişi Rafael Quliyev də iştirak etmişdir.




# Diplomatik protokol məsələləri ilə bağlı seminar

Avropa Protokol Məktəbi 26-27 oktyabrda «Beynəlxalq biznes və diplomatik protokol» üzrə beynəlxalq təlim seminarı təşkil etmişdir. Belçika, Finlandiya, İtaliya, Slovakiya, Nigeriya və Lüksemburqun dövlət orqanlarının və ayrı-ayrı təşkilatların nümayəndələrinin iştirak etdiyi seminarda Avropa İttifaqında tətbiq olunan protokol xidməti barədə dinləyicilərə geniş məlumat verilmiş, ABŞ və BMT protokolu ilə müqayisələr aparılmışdır. Seminarda Azərbaycan Vergilər Nazirliyi Aparatının əməkdaşları Zeynəb Qurbanova və Əhməd Əhmədov da iştirak etmişlər.

# Hədiyyə və miraslardan gəlir vergisi

Beynəlxalq qanunvericilikdə ayrı-ayrı adamların bir-birinə verdikləri hədiyyə və mirasların vergiyə cəlb olunması məsələlərinə dair xüsusi normalar müəyyənləşdirilib. Azərbaycan Respublikasının Vergi Məcəlləsində (Məcəllə) də fiziki şəxslərə verilən hədiyyə və mirasların vergiyə cəlb olunması öz əksini tapıb.

Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin şöbə rəisi Şükür Əhmədov bu mövzunu şərh edərkən bildirdi ki, fiziki şəxslərə hədiyyənin kim tərəfindən verilməsindən (qohumluq əlaqələrinin olub-olmamasından) asılı olaraq, Vergi Məcəlləsində hədiyyə və mirasların vergiyə cəlb olunması məsələsinə xüsusi yanaşma var. Məcəllənin 98.2.2-ci maddəsinə əsasən, işəgötürənin öz işçisinə malı, işi və ya xidməti hədiyyə etdiyi halda, bu cür malların, işlərin və xidmətlərin bazar qiyməti ilə dəyəri fiziki şəxsin gəliri hesab olunur. 102.1.3-cü maddədə isə nəzərdə tutulmuşdur ki, hədiyyə və miraslar fiziki şəxsin ailə üzvlərindən (Məcəllənin 13.2.7-ci maddəsində nəzərdə tutulan şəxslərdən) alındığı halda, onların dəyəri gəlirə aid edilmir və buna görə vergi tutulmur.

Bunlardan əlavə, Məcəllənin 102.1.3-cü maddəsində hədiyyə və miraslar vergiyə cəlb olunduğu hallarda, onların vergiyə cəlb edilməyən hədləri müəyyən olunub: təqvim ili ərzində alınan hədiyyələrin 1000 manatadək hissəsi və mirasların dəyərinin 20.000 manatadək hissəsi gəlir vergisindən azaddır.

Mirasın dəyərindən qeyd olunan güzəştlər çıxıldıqdan sonra qalan məbləğdən Məcəllənin 101.2-ci maddəsi ilə vergi hesablanır. Bu halda, vergi ödəyicisi 33-cü maddəyə uyğun olaraq, vergi orqanında uçota alınır və Məcəllənin 149-cu maddəsinə əsasən, hədiyyəni aldığı ildən növbəti ilin mart ayının 31-dək müvafiq gəlir vergisi haqqında bəyannaməni vergi orqanına təqdim edərək, həmin müddətdə hesablanmış vergini dövlət büdcəsinə ödəyir.

Miras və hədiyyələrin vergiyə cəlb olunmasında əsas məsələlərdən biri vergi dərəcəsinin müəyyən edilməsidir. Vergi dərəcəsinin bu qaydada müəyyən edilməsi, əsasən, vərəsələrin vəfat etmiş şəxslə qohumluq əlaqələrinin uzaq və ya yaxın olmasından irəli gəlir. Daha yaxın qohumluq əlaqəsində olan vərəsələr üçün, təbii ki, daha aşağı vergi dərəcəsi tətbiq edilir.

Azərbaycanda miras və hədiyyələrdən tutulan gəlir vergisinin dərəcəsi təqvim ili ərzində miras və ya hədiyyə şəklində əldə edilmiş gəlirin məbləğindən asılı olaraq, vahid proqressiv şkala üzrə müəyyən edilib. Təqvim ilində miras və ya hədiyyə şəklində əldə olunan gəlirin 30.000 manata qədər olan hissəsindən 14%, bundan artıq hissəsindən isə 25% dərəcə ilə vergi tutulur.

**F.İKRAMQIZI**

## Hüquq məsləhətxanamız



Samirə Musayeva
Azərbaycan Respublikası
Vergilər Nazirliyinin Hüquq Baş İdarəsinin rəisi
vergi ödəyicilərinin suallarına cavab verir

# Podrat müqaviləsi

***Başqa bir hüquqi şəxslə bağlanmış podrat müqaviləsinə əsasən, 2014-cü ildə tikinti işlərini yerinə yetirmişəm. İşlər həmin ildə başa çatdırılıb təhvil verilsə də, əvəzi 2015-ci ildə ödənilib. Hesablama metodu ilə uçot aparılarkən həmin gəliri bəyannamədə hansı il üzrə əks etdirməliyəm?***

Vergi Məcəlləsinin (VM) 130.4-cü maddəsinə əsasən, vergi ödəyicisi vergi ili ərzində eyni metodu tətbiq etmək şərtilə vergilərin uçotunu kassa metodu və ya hesablamalar metodu ilə apara bilər.

Vergi ödəyicisi vergi tutulan gəlirin (mənfəətin) dəqiq əks etdirilməsi üçün sənədləşdirilmiş məlumat əsasında gəlirlərinin və xərclərinin vaxtlı-vaxtında dəqiq uçotunu aparmağa tətbiq edilən uçot metodundan asılı olaraq, gəlirlərini və xərclərini onların əldə edildiyi və ya çəkildiyi müvafiq hesabat dövrlərinə aid etməyə borcludur. İstifadə edilən uçot metodunda xərclərin və daxilolmaların müddətləri və uçotu qaydasına dair bütün tələblər nəzərə alınmalıdır. Gəlirlərin və xərclərin uçotunu hüquqi və fiziki şəxslər müvafiq qanunvericiliyə uyğun aparırlar. Vergitutma məqsədləri üçün gəlirlər və xərclər Vergi Məcəlləsinə əsasən müəyyən edilir (VM, maddə 130.1)

Hesablama metodu ilə uçot aparan vergi ödəyicisi gəlir əldə edilməsinin və xərc çəkilməsinin faktiki vaxtından asılı olmayaraq, gəlirini və xərcini müvafiq surətdə gəlir almaq hüququnun əldə edildiyi və ya xərcin çəkilməsi barədə öhdəliyin yarandığı vaxt nəzərə almalıdır (VM, maddə 134).

VM-in 135-ci maddəsi hesablama metoduna münasibətdə gəlirin əldə edilməsi vaxtını tənzimləyir. Bu maddəyə görə, müvafiq məbləğ vergi ödəyicisinə qeyd-şərtsiz ödənilməlidirsə, yaxud vergi ödəyicisi əqd və ya müqavilə üzrə bütün öhdəliklərini yerinə yetirmişdirsə, bu vaxt gəliri almaq hüququ əldə edilmiş sayılır.

Vergi ödəyicisi müqavilə üzrə iş görürsə və ya xidmət göstərirsə, gəlir onu almaq hüququ müqavilədə nəzərdə tutulan işlərin görülməsinin və ya xidmətlərin göstərilməsinin tam başa çatdığı vaxtda əldə edilmiş sayılır.

Vergi ödəyicisi gəlir əldə edirsə və ya onun faiz gəliri, yaxud əmlakın icarəyə verilməsindən gəlir əldə etmək hüququ vardırsa, borc öhdəliklərinin və ya icarə müqaviləsi üzrə ödəmənin müddətinin qurtardığı vaxt gəlir almaq hüququnun əldə edildiyi vaxt sayılır. Borc öhdəliyinin və ya icarə müqaviləsi üzrə ödəmənin müddəti bir neçə hesabat dövrünü əhatə edirsə, gəlir onun hesablanma qaydasına müvafiq surətdə həmin hesabat dövrləri üzrə bölüşdürülür.

Onu da qeyd edək ki, vergi ödəyicisinin istifadə etdiyi uçot metodu dəyişdirilərkən verginin məbləğinə təsir göstərən mühasibat əməliyyatlarına düzəlişlər uçot metodunun dəyişdirildiyi ildə aparılmalıdır ki, bu əməliyyatlardan heç biri nəzərdən qaçırılmasın və ya iki dəfə hesaba alınmasın (VM, maddə 130.5).

vergi cinayətləri

# Vergidən yayınma cinayət məsuliyyəti yaradır

Sahibkar Özbək Əliyevə məxsus «Çinarçay» Məhdud Məsuliyyətli Cəmiyyət (MMC) ərzaq mallarının satışı ilə məşğul idi. Bir neçə il fəaliyyət göstərən MMC özünə xeyli müştəri də toplamışdı. Lakin müəssisənin qazancının artması sahibini əyri yola təhrik etdi. Öz biznesinin əhatə dairəsini genişləndirən Ö.Əliyev özünü vergi qaçaqçılığında da sınamaq qərarına gəldi. Vergi bəyannamələrini saxtalaşdıraraq halal qazancına haram qatdı. Amma bu çox davam etmədi və sahibkarın yol verdiyi vergi pozuntularına hüquqi qiymət verildi.

Vergi orqanlarının apardıqları kameral və səyyar vergi yoxlamaları zamanı «Çinarçay» MMC rəhbərinin 125.706,63 manat məbləğində vergiləri dövlət büdcəsinə ödəməkdən yayındırdığına dair faktlar aşkar edilib. Faktla bağlı toplanmış materiallar Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentinə təqdim olunub. Araşdırmalar zamanı müəyyən edilib ki, Ö.Əliyev «Çinarçay» MMC-nin direktoru vəzifəsində işləyərkən Vergi Məcəlləsinin 16.1.1, 16.1.4, 72, 78.1, 101, 105.1, 130.1, 130.2, 150.1.7, 155.1, 159.1, 166.1, 168.1, 177.1.1, 177.1.2, 177.1.3, 177.2, 177.6, 180.1-ci maddələrinin tələblərini pozaraq, vergi orqanına təqdim etdiyi bəyannamələri məqsədli şəkildə saxtalaşdırıb. Həmin fakt üzrə Cinayət Məcəlləsinin 213.2.2-ci maddəsi ilə cinayət işi başlanıb və Özbək Əliyev barəsində «Polisin nəzarəti altına vermək» qətimkan tədbiri seçilib.

İstintaq zamanı müəyyən edilmiş hallar iş materialları, çoxsaylı şahid ifadələri, ekspertiza rəyləri və s. sübutlarla təsdiq olunub. Təqsirləndirilən şəxs qismində cəlb edilmiş Ö.Əliyev CM-in 213.2.2-ci maddəsi ilə nəzərdə tutulmuş əməldə özünü tam təqsirli bilib, mənimsədiyi pul vəsaitini öz şəxsi məqsədləri üçün sərf etdiyini, yayındırılmış vergi məbləğini dövlət büdcəsinə ödəməyə maddi imkanının olmadığını göstərib. Şahid qismində dindirilən şəxslərin ifadələri, alqı-satqı müqavilələri və bank köçürmələri, çeklər, mühasibat sənədləri, məhkəmə-mühasibat ekspertizasının rəyləri və digər maddi sübutlar əsasında onun törətdiyi cinayət əməlləri tam sübuta yetirilib.

Beləliklə, Samux Rayon Məhkəməsinin hökmü ilə Özbək Mahmud oğlu Əliyev 3 il 6 ay müddətinə azadlıqdan məhrum edilib.

**ELBRUS**

## RƏQƏMLƏRİN DİLİ İLƏ

- AVROPA YENİDƏNQURMA VƏ İNKİŞAF BANKININ HESABLAMALARINA GÖRƏ, BU İLİN YANVAR-SENTYABR AYLARINDA AZƏRBAYCAN İQTİSADİYYATI ÖTƏN İLİN EYNİ DÖVRÜ İLƏ MÜQAYİSƏDƏ **3,7%** ARTIB.
- 2015-Cİ İLİN YANVAR-OKTYABR AYLARINDA SƏNAYE MÜƏSSİSƏLƏRİ VƏ BU SAHƏDƏ FƏALİYYƏT GÖSTƏRƏN FİZİKİ ŞƏXSLƏR TƏRƏFİNDƏN **22 MİLYARD** MANATLIQ VƏ YA ƏVVƏLKİ İLİN MÜVAFİQ DÖVRÜ İLƏ MÜQAYİSƏDƏ **2,2%** ÇOX SƏNAYE MƏHSULU İSTEHSAL EDİLİB.
- SOCAR 2015-Cİ İLİN YANVAR-OKTYABR AYLARINDA BÜDCƏYƏ **1 MİLYARD 271 MİLYON 276 MİN** MANAT VƏSAİT ÖDƏYİB.
- AZƏRBAYCAN GÜN ƏRZİNDƏ GÜRCÜSTANA **4 MLN.** KUBMETR, TÜRKİYƏYƏ İSƏ **18 MLN. KUBMETR** QAZ VERİR.
- BU İL AZƏRBAYCANDA **270**-DƏN ARTIQ YAŞAYIŞ MƏNTƏQƏSİ QAZLAŞDIRILIB.

# «Doing Business-2016» hesabatında vergi məsələləri

Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş idarəsinin icmalında bildirilir ki, Dünya Bankının (DB) ekspertləri tərəfindən bu günlərdə ictimaiyyətə təqdim olunan «Doing Business» illik hesabatı dünyanın əksər ölkələrində işgüzar fəaliyyətin tənzimlənməsi, sosial-iqtisadi inkişafın müxtəlif dövrünü yaşayan dövlətlərdə tənzimləmə sisteminin effektivliyi və islah edilməsini və ümumilikdə idarəçilik mühitinin təhlilini əks etdirir. 189 ölkənin yer aldığı sənəddə 63-cü pillədə qərarlaşan Azərbaycan üçün bu sənədin bir sıra əhəmiyyəti var. Hesabat aparıcı beynəlxalq konsaltinq agentlikləri tərəfindən müxtəlif ölkələrdə biznesin aparılması şəraitinin müntəzəm təhlillərini əks etdirir ki, bu da respublikamızda bu sahədə təsəvvürün formalaşması baxımından əhəmiyyətlidir.

«Doing Business» hesabatı ölkələrdə aparılan tənzimləmə tədbirlərinin sistemləşdirilməsinə və obyektiv qiymətləndirilməsinə şərait yaradır, bu göstəriciləri makroiqtisadi nəzəriyyə, həmçinin bazar və dövlət tənzimlənməsi ilə əlaqələndirir və ümumilikdə iqtisadiyyatın effektivliyini və əhalinin rifah halını xarakterizə edir. İri sahibkarların diqqətlə izlədikləri bu hesabat müsbət iqtisadi göstəricilərə malik ölkələrə, bir qayda olaraq, xarici investisiya və yeni texnologiyaların axını üçün də stimullaşdırıcı təsir göstərir.

Hesabata daxil olan 10 göstəricidən ikisi Azərbaycan Vergilər Nazirliyinə aiddir: 1) «Biznesə başlama» (Starting business), 2) «Vergilərin ödənilməsi» (Paying taxes). Birinci göstərici üzrə reytinq sahibkarın (sənaye və kommersiya) biznesə başlaması üçün təcrübədə tələb edilən inzibati prosedurların sayı, sərf olunan vaxt və xərclərin dəyəri, həmçinin ödənilmiş minimum kapitalın həcmini ifadə edir. Bu reytinqin müəyyən edilməsi məqsədləri üçün inzibati prosedur - lazımi lisenziya sənədlərinin müvafiq orqanlardan alınmasından ibarətdir, hər hansı kommunal xidmətlər (işıq, qaz, su və s.) istisna olmaqla xarici tərəflə münasibəti əks etdirir, prosedurun sonunda yekun sənəd alınır. Hesabata əsasən, bu reytinq göstəricisi üzrə kommersiya hüquqi şəxsin qeydiyyatı üçün yerinə yetirilməli prosedurların sayı 2, sərf edilən müddət 3 gün, məbləğ isə 72 manatdır. Burada prosedurlar onlayn qeydiyyat üçün elektron imzanın alınması üzrə 1 gün, onlayn qeydiyyatdan keçmək üzrə isə (VÖEN və ƏDV qeydiyyatı daxil) 2 gündür.

Qeyd edək ki, «Doing Business 2016» 2014-cü ilin göstəricilərini əks etdirir. «Doing Business 2015» hesabatı ilə müqayisədə Azərbaycan bu göstərici üzrə 4 pillə irəliləyərək 7-ci yerdə qərarlaşıb. Sənəddə e-imzanın tətbiqi ilə bağlı 2013-cü ildə ölkəmizdə aparılmış islahatların nəticəsi nəzərə alınıb, biznesə başlamaq üçün müəssisənin möhürünün alınmasına tələb aradan qaldırılıb, nəticədə yerinə yetirilməli prosedurların sayı azaldılaraq ikiyə salınıb.

Hesabatın bilavasitə vergi orqanlarının işinə aid digər göstəricisi - «vergilərin ödənilməsi» reytinqi Dünya Bankı ilə «Pricewaterhouse Coopers» şirkəti ilə birgə aparılan araşdırmalar nəticəsində hesablanır. Tətbiq edilən metologiyaya əsasən, orta ölçülü şirkətin il ərzində ödəməli olduğu vergi və digər ödəmələr, həmçinin onların inzibatçılıq yükü müəyyən edilir. Vergi və ödəmələrə müxtəlif mənbələrdən olan mənfəət və gəlirlərə görə vergilər, o cümlədən əmlak icarəsindən vergilər, dividend və kapital vergiləri, maliyyə köçürmələrindən əldə olunan gəlirdən vergilər, işəgötürənin ödədiyi əmək vergiləri, sosial ayırmalar, ətraf mühit vergiləri, əmlak, avtomobil və yol vergiləri və s. aid edilir.

Dövlət büdcəsinə vergilərin ödənilməsi və bəyannamələrin təqdim edilməsi sahəsində vergi sistemində tətbiq olunan yeniliklər əvvəlki illərin reytinq cədvəllərində öz əksini tapıb və «vergilərin ödənişi» göstəricisinin yüksək olması ölkəmizin xeyli irəliləməsinə səbəb olub. «Doing Business-2016»da isə ölkədə sosial müdafiə ayırmaları üzrə hesabatların və ödənişlərin elektron formada aparılması sahəsində əldə edilən nailiyyətlər nəzərə alınıb. Artıq Azərbaycanda məcburi dövlət sosial sığorta haqlarının ödənişi və hesabat sisteminin avtomatlaşdırılması tam başa çatdırılıb ki, bu da beynəlxalq təşkilatın reytinq göstəricisində öz əksini tapıb.

«Vergilərin ödənişi» indikatoru üzrə ümumilikdə sosial müdafiə ayırmaları, mənfəət vergisi və əlavə dəyər vergisi üzrə 195 saat, 7 ödəniş və mənfəətə nisbətdə ümumi vergi dərəcəsi isə 39,8% qeyd olunub.

**Elbrus CƏFƏRLİ**

**«Doing Business-2016» hesabatı – Azərbaycan**

| Biznesə başlama | | | |
|---|---|---|---|
| **Göstəricilər** | Azərbaycan | Avropa və Mərkəzi Asiya | OECD |
| **Prosedurlar (sayı)** | 2,0 | 4,7 | 4,7 |
| **Vaxt (günlər)** | 3,0 | 10,0 | 8,3 |
| **Xərc (adambaşına düşən gəlirin faizi)** | 1,2 | 4,8 | 3,2 |
| **Minimum kapital (adambaşına düşən gəlirin faizi)** | 0,0 | 3,8 | 9,6 |

**«Vergilərin ödənilməsi» göstəricisinə daxil olan «ödəmələr» və «vaxt» göstəriciləri**

| № | Göstəricilər | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | Ödəmələr (illik sayı) | 37 | 37 | 22 | 22 | 18 | 18 | 18 | 18 | 7 | 7 |
| | *O cümlədən:* | | | | | | | | | | |
| 1.1 | Vergilər Nazirliyi | 25 | 25 | 10 | 10 | 6 | 6 | 6 | 6 | 6 | 6 |
| | Dövlət Sosial Müdafiə Fondu | 12 | 12 | 12 | 12 | 12 | 12 | 12 | 12 | 1 | 1 |
| 1.2 | Vaxt (illik saat) | 1000 | 952 | 376 | 376 | 306 | 225 | 214 | 214 | 195 | 195 |
| | *O cümlədən:* | | | | | | | | | | |
| 2.1 | Vergilər Nazirliyi | — | — | — | — | — | — | 117 | 117 | 117 | 117 |
| 2.2 | Dövlət Sosial Müdafiə Fondu | — | — | — | — | — | — | 97 | 97 | 78 | 78 |

# Fərdi şəxsi hesabı olan sığortaolunanların sayı artıb

2006-cı il yanvarın 1-dən tətbiq edilən «Əmək pensiyaları haqqında» Qanuna uyğun olaraq, Azərbaycanda əmək pensiyaları fərdi hesaba toplanan pensiya kapitalına əsasən hesablanır. Fərdi şəxsi hesab sığorta və yığım hissəsindən ibarətdir və bu hesabın sığorta hissəsində qeydə alınan və yığım hissəsində toplanan vəsaitlərin məbləği pensiya kapitalını təşkil edir.

2015-ci il noyabrın 1-nə olan statistikaya əsasən, Dövlət Sosial Müdafiə Fondu tərəfindən oktyabr ayında əlavə olaraq 16.147 sığortaolunana fərdi şəxsi hesab açılıb. Cari ilin əvvəli ilə müqayisədə DSMF-nin fərdi uçot sistemində qeydiyyatda olan sığortaolunanların sayı 5,92% artıb. Beləliklə, ölkəmizdə fərdi şəxsi hesabı olan sığortaolunanların sayı 3 mln. 152 min 503 nəfər olub. DSMF-nin fərdi uçot sistemində qeydiyyatda olan sığortaolunanların 59,19%-i (1.865.815 nəfər) kişi, 40,81%-i (1.286.688 nəfər) isə qadınlardır.

Fərdi şəxsi hesabı olanlar arasında 30-40 yaş arası sığortaolunanlar üstünlük təşkil edir. Göstərilən yaş kateqoriyalarına aid şəxslər ümumi sığortaolunanların 25,02%-ni (788.890 nəfər) əhatə edir. Bundan başqa, fərdi uçot sistemində qeydiyyatda olan sığortaolunanların 21,25%-ni (669.702 nəfər) 30 yaşa kimi olan şəxslər, 20,53%-ni (647.223 nəfər) 40-50 yaş arası, 21,16%-ni (667.033 nəfər) 50-60 yaş arası, 12,04%-ni (379.655 nəfər) isə 60 yaşdan yuxarı şəxslər təşkil edir.

**Fərdi şəxsi hesabı olan sığortaolunanların yaş kateqoriyaları**




**Fərdi uçot sistemində qeydiyyata alınan əcnəbilər arasında ən yüksək say göstəriciləri olan ölkələr** *(nəfərlə)*




## Fərdi uçot sistemində qeydiyyata alınan əcnəbilərin sayı da artıb

2006-cı il yanvarın 1-dən Azərbaycan Respublikası mənbələrindən əmək ödənişi və məcburi dövlət sosial sığorta haqqına cəlb olunan digər gəlirləri əldə edən əcnəbilərin məcburi dövlət sosial sığortası ilə əhatə olunması prosesi həyata keçirilir. 2015-ci il noyabrın 1-nə olan statistikaya əsasən, ilin əvvəli ilə müqayisədə DSMF-nin fərdi uçot sistemində qeydiyyata alınan əcnəbilərin sayı 19,75% artıb. Oktyabr ayı ərzində əlavə olaraq 472 nəfər əcnəbi vətəndaş qeydiyyata alınıb və nəticədə fərdi uçot sistemindəki əcnəbilərin sayı 26.972 nəfərə yüksəlib.

Ümumilikdə 115 ölkənin vətəndaşlarını əhatə edən əcnəbilər arasında ən yüksək say göstəricisi Türkiyə vətəndaşlarına (13.583 nəfər) aiddir. İkinci yerdə gələn Gürcüstan vətəndaşlarının sayı 2949 nəfərə, üçüncü yerdə gələn Rusiya Federasiyası vətəndaşlarının sayı isə 1617 nəfərə çatıb. Sonrakı yerlərdə Hindistan (966), İran (960), Çin (844), Böyük Britaniya (548), Pakistan (531), Ukrayna (422), Banqladeş (375), Özbəkistan (269), Almaniya (247), Filippin (235), ABŞ (230), Qazaxıstan (211), Türkmənistan (209), Cənubi Koreya (189), İtaliya (187) və s. ölkələr gəlir.

**AYTƏN**

# Elm və iqtisadiyyatın vəhdəti

*«Bizim gələcək inkişafımızı sənaye və kənd təsərrüfatı sahələri müəyyən edəcək. Ona görə dövlət siyasəti birmənalıdır. Dövlət qurumlarına göstərişlər verilib. Alimlərdən xahiş edirəm ki, bu məsələ ilə çox ciddi məşğul olsunlar».*

İlham ƏLİYEV,
*Azərbaycan Respublikasının Prezidenti*

Dövlət başçısı Milli Elmlər Akademiyasının 70 illiyinə həsr olunmuş yığıncağında bildirib ki, hazırkı dövr qarşıya yeni iqtisadi tələblər qoyur və dünyada baş verən proseslər daha ciddi islahatlar aparmağı zəruri edir. Bu məsələdə alimlərin qarşısında duran vəzifələr də çoxdur: «Çünki mənim əsas istəyim ondan ibarətdir ki, ilk növbədə Azərbaycan elmi inkişaf etsin, digər tərəfdən ölkəmizin ümumi inkişafına öz töhfəsini versin. Yəni elmi araşdırmalar sadəcə olaraq araşdırmalar üçün deyil, ölkə iqtisadiyyatının təhlükəsizlik potensialının güclənməsinə yönəlməlidir».

***Dayanıqlıq və tarazlıq modeli***

İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunun direktoru, professor Vilayət Vəliyev hesab edir ki, qloballaşma və iqtisadi böhran fonunda biznes ictimaiyyəti öz baxışlarını və strategiyalarını müəyyənləşdirmək, həyata keçirmək üçün təkcə mikro və makro səviyyədə deyil, həmçinin sahəvi, regional və beynəlxalq səviyyələrdə də iqtisadi hadisələrin inkişafını yaxından izləməyə ehtiyac duyur. Bu məqsədlə İqtisadi İslahatlar İnstitutu tərəfindən hazırlanan ölkəmizin ümumi iqtisadi tarazlıq modelinə əsasən, respublikanın iqtisadi və maliyyə resurslarından səmərəli istifadə edərək iqtisadiyyatın çoxşaxəliliyini təmin etmək, dayanıqlı sosial-iqtisadi inkişafa nail olmaq mümkündür. Tarazlıq modelində qarşıdakı dövrə aid büdcə-vergi siyasəti ilə bağlı məsələlərə də yer verilib. Bu model vergi və subsidiyalarla bağlı dəyişikliklərə iqtisadiyyatın necə reaksiya verəcəyinin düzgün qiymətləndirilməsində əvəzsiz rol oynayır. Sənəd hazırlanarkən vergi daxilolmalarının proqnozlaşdırılması məsələlərini həll etmək məqsədilə Vergilər Nazirliyinin köməyi ilə məhsula və istehsala vergilər daha geniş səpkidə verilib: istehsala və məhsula vergilərin növləri göstərilməklə 15 sahə əhatə olunub. Bu isə vergi dərəcələrinin və ya vergi daxilolmalarının ümumi iqtisadi tarazlığa təsirini öyrənməyə və proqnozlaşdırmağa imkan yaradır.

V.Vəliyevin fikrincə, iqtisadi siyasətin elmi əsaslarının artırılması məqsədilə elmlə iqtisadiyyatın vəhdətinin artırılması, elmyönümlü iqtisadiyyatın qurulması olduqca vacibdir. İnkişaf etmiş ölkələrin iqtisadiyyatının bazasını yüksək texnologiyalar təşkil edir. Hazırda dövlət siyasətinin vacib prioritetlərindən biri innovasiya yönümlü iqtisadiyyata keçidlə bağlıdır. Bu sistemin inkişafı üçün müvafiq infrastrukturun formalaşması və idarə olunması prosesinin maksimal səmərəliliyi təmin edilməli, innovasiya fəaliyyətinin idarə olunmasının mütərəqqi üsul və mexanizmlər sistemi yaradılmalıdır. Bu istiqamətdə sənaye texnologiyaları parklarının, sənaye məhəllələrinin və regionlarda biznes inkubatorlarının yaradılması mühüm əhəmiyyət kəsb edir.

***Elmi tədqiqatların aparılması üçün yeni strategiya***

Kənd təsərrüfatı üzrə mütəxəssis Rizvan Mustafayev bidirir ki, aqrar sektorun inkişafı elmi kəşflərə əsaslanır, elmi-iqtisadi-nəzəri biliklərin iqtisadiyyata tətbiqi yolu ilə tənzimlənir. Bu sahədə həyata keçirilən elmi tədqiqatların kənd təsərrüfatında tətbiqi imkanlarının genişləndirilməsi ixtisaslı elm adamlarının qarşısında duran başlıca vəzifədir: «Araşdırma və təhlillər göstərir ki, kənddə sahibkarlığı inkişaf etdirmək, istehsal vasitələri və torpaq üzərində sahiblik hissi yaratmaq, mütərəqqi təsərrüfatçılıq üsullarına keçmək, yeni mülkiyyət münasibətləri formalaşdırmaq, torpaqdan, texnikadan, sudan və sair maddi ehtiyatlardan səmərəli istifadə etmək yolu ilə məhsul istehsalını artırmaq mümkündür. Bu məqsədlərin uğurla gerçəkləşdirilməsində isə elm öz sözünü deməlidir. Mütəxəssislər vətəndaşların ərzaq məhsullarına tələbatının elmi proqnozlarını irəli sürməli, istehsal prosesinin effektivliyini artırmağa xidmət edən, təcrübədə özünü doğruldan yeni metodlar işləməlidirlər».

Mütəxəssisin sözlərinə görə, kənd təsərrüfatının elmi potensialının gücləndirilməsi və yeni elmi tədqiqatların aparılması üçün strategiya hazırlanır. Sənəddə kənd təsərrüfatı məhsullarının istehsalı, tədarükü, saxlanması və emalının yaxşılaşdırılması, iri fermer təsərrüfatlarının yaradılması, rəqabətqabiliyyətliliyin artırılması məqsədilə mütərəqqi texnologiyaların tətbiqi, aqrotexservis xidmətləri şəbəkəsinin genişləndirilməsi, kənd təsərrüfatının texnikaya, mineral gübrələrə və pestisidlərə olan tələbatının tam ödənilməsi ilə bağlı istiqamətlər nəzərdə tutulub. Bununla yanaşı, sənayenin yenidən qurulması, kənd təsərrüfatı məhsulları ixracının artırılması, istehsalçıların və istehlakçıların maraqlarının qorunması, habelə ərzaq bazarının səmərəli fəaliyyətinin təmin olunması aqrar siyasətin müasir prinsiplərini təşkil edir.

Qeyd edək ki, kənd təsərrüfatı və sənaye sahələrinin inkişafının stimullaşdırılması üçün görülən hərtərəfli tədbirlər sayəsində 2001-ci ildən aqrar sahədə məhsul istehsalı 3,5 dəfədən çox artaraq 1,3 milyard manatdan 5 milyard manata çatıb. Hazırda ölkədəki iqtisadi fəal əhalinin yarısından çoxu kənd təsərrüfatı sahəsində çalışdığından və aqrar sektor əsas etibarilə bölgələri əhatə etdiyindən, vergi güzəştləri aqrar sənayenin, xüsusilə də yaradılması nəzərdə tutulan yeni aqroparkların inkişafına mühüm töhfə verir. Aqroemal müəssisələrinin fəaliyyətinin artması yeni istehsalat sahələrinin yaranmasına, həmin sahələrdən əlavə vergi yığılmasına səbəb olacaq.

**Elbrus CƏFƏRLİ**


AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ
İLƏ BİRLİKDƏ DEKABR AYININ 4-DƏ ALİ MƏKTƏB
TƏLƏBƏLƏRİ VƏ MAGİSTRANTLARI ARASINDA
AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ
HEYDƏR ƏLİYEVİN XATİRƏSİNƏ HƏSR EDİLMİŞ

"VERGİLƏR" MÖVZUSUNDA
IX ÜMUMRESPUBLİKA
OLİMPİADASI KEÇİRİR

Olimpiada test üsulu ilə təşkil olunacaq,
qaliblər diplom və hədiyyələrlə mükafatlandırılacaqlar.
İştirak etmək istəyən tələbə və magistrantlar ali məktəblərin
rektoratlıqlarına müraciət edə bilərlər.


## BİR CÜMLƏ - BİR XƏBƏR

Ötən ay "Elektron hökumət" portalına 355 minə yaxın daxilolma qeydə alınıb.

İsrail şirkətləri Azərbaycanda kənd təsərrüfatı sahəsində bir sıra layihə həyata keçirəcək.

Azərbaycan Sığortaçılar Assosiasiyası sığortanın təbliğinə dair marketinq plan hazırlayır.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi növbəti il üçün əmək bazarı üzrə proqnozları açıqlayıb.

SOCAR Türkiyədə kömür elektrik stansiyası tikəcək.

Bakıda plastik kartlarla işləyən parkomatlar quraşdırılacaq.

Türkiyə Azərbaycanda informasiya texnologiyalartı üzrə Akademiya açacaq.

# Səyyar «ASAN xidmət»də bir saat

*«ASAN xidmət» mərkəzlərinin hələ olmadığı regionlarda əhaliyə xidmətlərin yerində çatdırılması üçün müasir texnoloji avadanlıqlarla təchiz edilmiş xüsusi avtobuslar fəaliyyət göstərir. Bu nəqliyyat vasitəsilə həyata keçirilən səyyar xidmətlər Ədliyyə Nazirliyi, Daxili İşlər Nazirliyi, Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi, Dövlət Sosial Müdafiə Fondu və Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən təqdim olunur.*




Səyyar xidmətlərə şəxsiyyət vəsiqələrinin verilməsi və dəyişdirilməsi; ümumvətəndaş pasportlarının verilməsi və dəyişdirilməsi; sürücülük vəsiqələrinin dəyişdirilməsi; əmək pensiyalarının təyin edilməsi; yaşayış evləri (mənzilləri) üzərində mülkiyyət hüquqlarının dövlət qeydiyyatına alınması barədə çıxarışların (ilkin qeydiyyat istisna olmaqla) verilməsi; daşınmaz əmlakın təsvirinə, dövlət qeydiyyatına alınmış hüquqlara və onların məhdudlaşdırılmasına (yüklülüyünə) dair dövlət reyestrindən arayışların verilməsi daxildir.

Sumqayıt şəhərindəki «ASAN xidmət» mərkəzinin səyyar qrupu hazırda Xırdalan şəhərində fəaliyyət göstərir. Qrupun rəhbəri Sənan Səmədli bildirir ki, onlar bir ay - noyabrın 3-dən dekabrın 2-dək Xırdalan şəhərində olacaqlar.

Xidmət zamanı baş verən prosesləri kənardan müşahidə edirik. Ümumvətəndaş pasportlarının verilməsi və dəyişdirilməsi pəncərəsində Gülüstan Həsənzadə, şəxsiyyət vəsiqələrinin verilməsi və dəyişdirilməsində Taleh Məmmədov, vətəndaşların ailə vəziyyəti haqqında aktların dövlət qeydiyyatında Günel Yusifova, əmək pensiyalarının təyin edilməsində Turxan Məcidov, daşınmaz əmlakın qeydiyyatı pəncərəsində Nurlan Mahmudov, notariat xidmətlərində Günay Məsimova, sürücülük vəsiqələrinin dəyişdirilməsi üzrə pəncərədə isə Elvin Yusifli xidmət göstərir. Baş məsləhətçi İsrafil Abdullayev bütün xidmət prosesinə, ayrı-ayrı orqanların fəaliyyətinə nəzarət edir, məsləhətçi Elvin Əliyev isə vətəndaşlara lazımi məsləhətlər verir və onları yönləndirir.

Sənan Səmədli bildirir ki, regionlarda xidmətin həyata keçirilməsi üçün əvvəlcədən məkanlar və günlər müəyyənləşdirilir: «Səyyar xidmət göstərəcək iki kiçikhəcmli avtomobil vətəndaşların məlumatlandırılması məqsədilə təyin olunmuş müvafiq əraziyə yola düşür. Sonra iritutumlu avtobuslar müvafiq rayon və qəsəbəyə yollanır və xidmətlərin birbaşa həyata keçirilməsi üçün nəzərdə tutulmuş xüsusi məkanda yerləşdirilir. Vətəndaşlar həmin yerlərə gələrək səyyar mərkəzdə quraşdırılmış elektron növbə sistemi vasitəsilə qeydiyyatdan keçir, avtobuslarda yerləşdirilmiş müvafiq pəncərəyə yaxınlaşır və zəruri sənədləri operatora təqdim edirlər. Səyyar xidmət operatoru təqdim olunmuş ilkin sənədlərin qanunauyğunluğunu və tamlığını yoxlayır, vətəndaşa yerindəcə xidmət göstərir. Sənədin yerində verilməsi mümkün olmadığı halda, vətəndaşın sənədləri xidməti həyata keçirən müvafiq dövlət orqanının yerli nümayəndəliyinə göndərilir və müraciət edən şəxs növbəti prosedurlar barədə ətraflı məlumatlandırılır».

Burada olduğumuz müddət ərzində səyyar «ASAN xidmət»ə insanların axınla gəldiyini, çoxsaylı müraciətlər olunduğunu müşahidə etdik. Qrup təmsilçisi bildirir ki, iki gün ərzində onlara təxminən 200 müraciət olmuşdur. Müraciətlər ən çox şəxsiyyət vəsiqələrinin, ümumvətəndaş pasportlarının dəyişdirilməsi və verilməsi, notariat xidməti və dövlət qeydiyyatı ilə bağlıdır. S.Səmədlinin sözlərinə görə, vətəndaş məmnunluğu göstəricisi 97-98%-dir. Narazılıq ancaq vətəndaşların təqdim etdikləri sənədlərin çatışmazlığı səbəbindən baş verir, bunun aradan qaldırılması üçün vətəndaşlara lazımi məsləhətlər verilir, yardımlar olunur. Səyyar xidmətə ayrılmış binada könüllülər Aynur Məmmədova və Lamiyə Məstəlizadə ərizə anketlərinin doldurulmasında müraciət edən şəxslərə yardım edirlər. Burada vətəndaşlar foto və tibbi xidmətdən də yararlanırlar. Kəmalə Allahverdiyeva tibb bacısıdır. Qan analizi, gözlərin rəngi və boyla bağlı tibbi arayışları hazırlayır. Gün ərzində onlarla vətəndaşa xidmət göstərdiyini deyir.

Vətəndaşlar da onlar üçün yaradılan bu şəraitdən məmnun olduqlarını bildirirlər. Arzu İbrahimov sürücülük vəsiqəsinin 10 dəqiqəyə dəyişdirildiyini deyir... Zöhrə Tağıyeva evin orderi ilə bağlı müraciətinin operativ şəkildə həll olunduğundan razılıq edir... Fiqumə Nuriyeva pensiya xidməti ilə bağlı müraciət etdiyini bildirir. Onun sənədləri yoxlanılır və lazımi orqana müraciət etməsi üçün istiqamət verilir... Gültəkin Vəliyevaya təcili ümumvətəndaş pasportunu almaq lazımdır. Onun monitorda əks olunan növbə nömrəsi çatır, dövlət rüsumunu ödədikdən sonra xidməti pəncərəyə yaxınlaşaraq imza atır, şəkil çəkdirir, qeydiyyat tam sənədləşdirildikdən sonra sənədin götürülmə vaxtı bildirilir...

İnsanları bu ünvana gətirən səbəblər nə qədər müxtəlif olsa da, onları bir cəhət - üzlərindəki məmnunluq ifadəsi birləşdirir. Elə biz də səyyar «ASAN xidmət»dən bu duyğunun yaratdığı xoş təəssüratlarla ayrılırıq...

**Fəxriyyə İKRAMQIZI**



Mehdi Babayev
«Professional MÜHASİB» jurnalının baş redaktoru,
audit üzrə mütəxəssis

Audit

# Şou-biznesə aid fəaliyyətlərlə məşğul olan şəxslərin vergiyə cəlb edilməsi

Hörmətli oxucular, qəzetimizin ötən sayında qeyd edildiyi kimi, hazırda cəmiyyətdə fərdi və ya qrup şəklində müğənnilik, musiqiçilik, tamadalıq, şoumenlik, prodüserlik, diceylik, aparıcılıq, rəqqaslıq, rejissorluq, videooperatorluq, aktyorluq və digər ifaçılıqlarla məşğul olan şəxslərin fəaliyyətini şou-biznesə aid etmək olar. Bunların arasında ən çox vüsət alanı müğənnilərdir. Sosial sferada, eləcə də əhali arasında müğənnilərin gəlir və xərclərinə qarşı müxtəlif aqressiv fikirlər də mövcuddur. KİV-lərdə gedən informasiyalardan da belə qənaətə gəlmək olar ki, bəzi müğənnilərin daha böyük gəlirlər əldə etdiyi və israfçı xərclər çəkdiyi bildirilir və bununla da həmin müğənnilərə qarşı «qısqanc» münasibətlər ortaya çıxır. Bütün bu məsələlərə aydınlıq gətirmək üçün audit baxımından müğənniliklə məşğul olan fiziki şəxslərin gəlir və xərclərini təhlil edək.

Müğənninin əsas gəlirlərinə aşağıdakıları aid etmək olar (bu sıralama artırıla bilər):

- şadlıq sarayları, restoran, kafe, bar və əyləncə obyektlərində mahnı ifaçılığından gəlirlər;
- toy və digər şənliklərdə mahnı ifaçılığı ilə bərabər aparıcılıq fəaliyyətindən gəlirlər;
- konsert zallarında solo və ya ümumi konsert proqramlarında özəl ifaçılıqdan gəlirlər;
- mahnılarının audio yazıldığı SD disklərinin satışından gəlirlər;
- kliplərinin video yazıldığı SD-R disklərinin satışından gəlirlər;
- reklam çarxlarında iştirakdan əldə edilən gəlirlər;
- bəzi TV və radio proqramlarında ekspert, münsif və digər formada iştirakdan gəlirlər.
- bu fəaliyyətlə bağlı əldə etdikləri yardım və hədiyyələr.
- o cümlədən ölkədən kənarda yuxarıda göstərilən fəaliyyətlərdən gəlirlər.

Bütün bu gəlirlərin sənədli təsdiqi vacibdir. Hər bir istiqamət üzrə gəlirlər özünəməxsus müqavilə çərçivəsində baş tutur. İlk növbədə, məsləhət görülür ki, müğənnilər hər bir gəlir növü üzrə göstərdiyi xidmətlərin adını, ölçü vahidini, miqdar vahidini və qiymətini müəyyənləşdirsinlər. Buna qiymət şablonları da demək olar. Bu şablonlardan bağlanılan müqavilələrin dəyərinin təyin edilməsində və risk (yoxlama) anlarında bazar qiymətlərinin tətbiqi və müəyyənləşdirilməsində istifadə oluna bilər.

Burada qaranlıq qala biləcək bir məqam vardır - müğənni qonorar əldə edir, yoxsa göstərdiyi xidmətin haqqını alır? Əslində, müğənni bu proseslərdə müəllif kimi deyil, xidmət göstərən şəxs kimi çıxış edir. Bəzən müğənnilərin qonorar aldığı bildirilsə də, əslində, o, ifaçılığa görə qonorar yox, xidmət haqqı alır. Çünki müğənni mahnı ifa etməklə dinləyicini əyləndirir və bununla da dolayısı ilə əyləncə xidməti göstərmiş olur. «Qonorar» (royalti) müəlliflə bağlı anlayışdır. Müğənni öz ifalarının müəllifi ola bilər, lakin ifaçılıq bu biznesdə müştəriyə göstərilən xidmətdir. Əgər müğənni ifa etdiyi mahnının başqasının da ifa etməsinə icazə verərsə, belə halda icazəyə görə digər ifaçıdan aldığı haqq qonorar hesab edilə bilər. Yaxud da müğənni (əsərin müəllifi) özünün bəstələdiyi və ya özünə məxsus mahnının (müəllif əsərinin) kütləvi ifası üçün başqa bir müğənniyə (müəllif hüquqlarının başqa istifadəçisinə) icazə verirsə, belə halda müğənninin mahnını ifa edən başqa müğənnidən aldığı haqqı qonorar (royalti) hesab etmək olar.

Müğənni yuxarıda sadalanan xidmətləri həyata keçirdiyi zaman, əsasən, aşağıdakı sənədlərdən istifadə edə bilər:

- ayrı-ayrı xidmətlərin göstərilməsi haqqında müqavilələr.
- göstərilən xidmətlərin təhvil-təslim aktları;
- hesab-fakturalar;
- bank əməliyyatları tətbiq edildiyi halda elektron vergi hesab-fakturaları;
- kassa mədaxil orderləri;
- bank əməliyyatları tətbiq edildiyi halda, ödəniş tapşırıqları.

Məsələn, şadlıq sarayı, restoran, kafe, bar və müxtəlif əyləncə obyektlərində ifaçılıq xidmətlərinin göstərilməsi üçün ya adıçəkilən obyektlərin sahibi (rəhbərliyi), ya da şənliyin bilavasitə sahibi (məsələn, toy və ya hər hansı şənliyin sahibi) ilə «müğənnilik xidmətlərinin göstərilməsi müqaviləsi» bağlanıla bilər və sonda xidmətlərin təhvil-təslimini təsdiq etmək üçün hər iki tərəfdən imzalarla təsdiqlənmiş akt tərtib etmək olar. Həmçinin pulu (xidmət haqqını) alan müğənni özünün kassa-mədaxil orderi ilə müştəridən aldığı nağd pulu rəsmiləşdirməlidir. Bu, həm sənədləşdirmə, həm də vergitutma baxımından daha uğurlu addımdır. Belə obyektlərdə müğənni eyni zamanda aparıcılıq da edirsə, müqavilədə bu barədə əlavə müddəaların əks olunması lazımdır. Bu cür bağlanılan müqavilə ilə müğənni ayrı-ayrı xidmətlərlə bağlı qiymətlərin şəffaflığını təmin etmiş olur. Təhvil-təslim aktı gəlirin hesablanmasını, kassa-mədaxil orderi isə hesablanmış gəlirə görə pulun daxil olmasını təsdiq etmiş olur. Konsert zallarında solo və ya ümumi konsert proqramlarında özəl ifaçılıq üçün prodüserlə və ya konsertin hər hansı rəsmi təşkilatçısı ilə də «müğənnilik xidmətlərinin göstərilməsi müqaviləsi» bağlanıla bilər. Digər istiqamətlər üzrə xidmətlərin göstərilməsi üçün isə müvafiq müqavilələr (reklamda iştirak haqqında müqavilə, münsif və ya ekspert xidmətləri haqqında müqavilə) hazırlana bilər. SD və SD-R disklərin satışını isə alqı-satqı müqaviləsi çərçivəsində həyata keçirmək olar.

Gəlirlərin mahiyyətindən belə qənaətə gəlmək olur ki, bu fəaliyyətlərin hamısı müğənni üçün səyyar xarakter daşıyır. Yəni müğənninin faktiki fəaliyyət göstərməli olduğu yerin, yəni özünün daimi təsərrüfat subyektinin olması halı yaranmaya bilər (hüquqi ünvan istisna olmaqla). Belə olan halda, müğənninin göstərdiyi fəaliyyət növləri üzrə müştəriləri ilə qanunvericiliyin tələbinə uyğun nağd hesablaşma aparması mümkün olmur. Belə ki, yuxarıda sadalanan fəaliyyətlərdən Vergi Məcəlləsinin 16.1.8-ci maddəsində göstərilən fəaliyyət növlərinə aid edilə biləni olmasa da, müğənni həmin fəaliyyətləri səyyar formada (müştərinin və ya təşkilatçının təyin etdiyi yerdə) həyata keçirdiyinə görə, praktiki olaraq, nəzarət-kassa aparatını tətbiq edə bilmir (və ya tətbiq etmək mümkün olmur).

Müğənninin başqa, yəni «şou» fəaliyyətindən kənar digər biznes (məsələn, ticarət, tikinti, kənd təsərrüfatı və sair) sahələrindən gəlirləri olduğu halda, o, belə gəlirləri şou-biznes sahəsindən əldə etdikləri gəlirlərlə birlikdə mükəlləfiyyətində olduğu vergi bəyannamələrində əks etdirməlidir.

Bir reallıq da vardır ki, müğənnilər sosial əhəmiyyətli tədbirlərdə, o cümlədən mədəniyyət günləri, festivallar, baxış, müsabiqə, təqdimat, yubiley, xatirə və s. məqsədlərlə keçirilən tədbirlərdə əvəzsiz (pulsuz) ifalar təqdim edirlər. Belə sosial xarakterli təqdimatlardan hər hansı gəlir əldə edilmədiyinin və ya belə təqdimatların vergitutma obyekti hesab olunmamasının təsdiqlənməsi üçün müğənninin bu barədə sənədli məlumatları əldə edərək saxlaması tövsiyə olunur.

Xidmətlərin göstərilməsindən əldə olunan gəlirlərdən, müğənni əgər sadələşdirilmiş vergi ödəyicisidirsə, ümumi hasilatın həcmindən 4% (Bakı şəhəri üzrə dərəcə ilə) və ya 2% (Bakı şəhərindən kənar ərazilər üzrə dərəcə ilə) sadələşdirilmiş vergi (VM, maddə 220.1), əgər ƏDV-nin ödəyicisidirsə, büdcənin xeyrinə 18% ƏDV (VM, maddə 173.1) və hesablama və ya kassa metodunun tətbiqindən asılı olaraq, illik gəlirindən (vergi məqsədli xərclər çıxıldıqdan sonra) 20% gəlir vergisini (VM, maddə 101.3) büdcəyə ödəməlidir. Əldə etdiyi qonorardan isə ödəmə mənbəyində 14% vergi tutulmuşdursa (maddə 124), belə gəlirlərdən bir daha vergi hesablanmır (VM, maddə 124.2). ƏDV ödəyicisi olan fiziki şəxs - müğənni pul və ya digər əşya formasında yardım əldə etdiyi zaman həmin pul və ya digər əşyanın bazar qiyməti ilə dəyəri ƏDV üçün vergitutma obyekti hesab edilməsə də, illik gəlir vergisinin hesablanmasında gəlirlərə aid edilir.

# Vizalar elektron qaydada rəsmiləşdiriləcək

Xarici İşlər Nazirliyinin Kollegiyası «Azərbaycan Respublikasına səfər etmək istəyən əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə vizaların verilməsi üçün müraciətin və sənədlərin qəbulu üzrə inzibati reqlament»i təsdiq edib. Reqlamentə görə «evisa.mfa.gov.az» ünvanında təqdim edilən elektron xidmət, Azərbaycana səfər etmək istəyən əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin viza (turistlərə verilən elektron viza istisna olmaqla) almaq üçün elektron




qaydada müraciətinin və sənədlərinin qəbul edilməsi, baxılması, cavablandırılması, baxılmanın nəticəsindən asılı olaraq viza rəsmiləşdirilməsi və ya viza rəsmiləşdirilməsindən imtina edilməsini əhatə edir. Viza verilməsi haqqında əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin vəsatətlərinə müraciət olunduğu gündən ən geci 15 gün keçənədək, Azərbaycan Prezidenti tərəfindən müəyyən edilən hallarda, habelə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin səfəri təcili müalicə, yaxud Azərbaycanda yaşayan yaxın qohumunun ağır xəstəliyi və ya ölümü ilə bağlıdırsa (bu faktları təsdiq edən sənəd təqdim olunmaqla), ən geci 2 iş günü ərzində baxılır.

Elektron xidmət ödənişlidir. Birdəfəlik giriş vizaları üçün - 50, çoxdəfəlik giriş vizaları üçün - 350, turizm vizaları və şəxsi kontraktla təhsil alan tələbələrin vizaları üçün - 20, birdəfəlik tranzit vizası üçün - 20, ikidəfəlik tranzit vizası üçün - 40 ABŞ dolları məbləğində dövlət rüsumu ödənilir. Viza verilməsi üçün ödənilən dövlət rüsumu, müraciətə baxılmanın nəticəsindən asılı olmayaraq, geri qaytarılmır.

«Dövlət rüsumu haqqında» qanuna əsasən, xarici ölkələrin müvafiq orqanları tərəfindən Azərbaycan vətəndaşlarına aid viza rəsmiləşdirilməsi üçün tutulan dövlət rüsumunun məbləği həmin qanunla eyni hərəkətlərə görə müəyyən edilmiş məbləğdən fərqli olduqda dövlət rüsumunun dərəcəsi Nazirlər Kabinetinin qərarı ilə həmin ölkələrdə Azərbaycan vətəndaşlarına münasibətdə tutulan dövlət rüsumu səviyyəsində müəyyən olunmuş məbləğdə tətbiq edilir.

«Dövlət rüsumu haqqında» qanu əsasən, Azərbaycana gələn dövlət nümayəndə heyəti üzvləri və rəsmi şəxslərdən, Azərbaycanda beynəlxalq humanitar təşkilatları təmsil edənlərdən, dövlət xətti ilə təhsil alan və pedaqoji fəaliyyət göstərənlərdən, müdafiə xətti ilə səfər edənlərdən viza rəsmiləşdirilməsi üçün dövlət rüsumu alınmır. Viza verilməsi üçün ödənilən dövlət rüsumu, müraciətə baxılmanın nəticəsindən asılı olmayaraq, geri qaytarılmır. Viza rəsmiləşdirilməsi ilə əlaqədar Azərbaycana səfər etmək istəyən əcnəbilərdən və vətəndaşlığı olmayan şəxslərdən Miqrasiya Məcəlləsi ilə nəzərdə tutulmayan sənədlərin tələb olunması qadağandır.

Ərizə forması elektron xidmətin təqdim edildiyi internet ünvanında real vaxt rejimində doldurulur və qeyd olunan sənədlərin elektron surətləri ərizəyə əlavə edilərək həmin elektron ünvana təqdim edilir. İstifadəçi tərəfindən təqdim olunmuş sənədlərdə çatışmazlıqlar aşkar edildikdə sorğunun yerinə yetirilməsindən imtina olunur və imtinanın səbəbləri barədə ərizəçinin elektron poçt ünvanına dərhal məlumat göndərilir. Təkrar vəsatətə imtinanı doğuran səbəblər aradan qaldırıldıqdan sonra baxılır. İstifadəçi tərəfindən təqdim edilmiş sənədlər reqlamentə uyğun olduqda sorğu qəbul olunur. Elektron qaydada daxil olmuş vizanın verilməsi barədə ərizənin düzgün doldurulması və tələb olunan sənədlərin tamlığı diplomatik nümayəndəlik və konsulluqlar tərəfindən yoxlanıldıqdan sonra dərhal «Giriş-çıxış və qeydiyyat» idarələrarası avtomatlaşdırılmış məlumat axtarış sistemi (İAMAS) vasitəsilə gücləndirilmiş elektron imza edilərək baxılması üçün Xarici İşlər Nazirliyinin Konsulluq idarəsinə göndərilir. Nazirliyin Konsulluq idarəsinin məsul əməkdaşı tərəfindən sorğudakı məlumatların düzgünlüyü və tamlığı yoxlanılır və İAMAS-ın məhdudiyyət siyahıları ilə müqayisələr aparılır. Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin rəyi alındıqdan sonra qəbul edilən yekun qərar sorğunun daxil olduğu diplomatik nümayəndəliyə və ya konsulluğa təqdim edilir. Viza verilməsi məqsədəuyğun hesab edildikdə diplomatik nümayəndəlik və ya konsulluq tərəfindən viza blankının fərdiləşdirilməsi, pasporta yapışdırılması, verilməsi və qeydə alınması təmin edilir. Araşdırmaların nəticəsindən asılı olaraq viza verilməsi məqsədəuyğun hesab edildikdə istifadəçiyə elektron poçt vasitəsilə vizanın rəsmiləşdiriləcəyi yer və tarix barədə məlumat verilir.

**Rəşad SADIQOV**

## vergi taqvimi

| NOYABR | | | | | | |
|---|---|---|---|---|---|---|
| I | II | III | IV | V | VI | VII |
| | | | | | | 1 |
| 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 |
| 9 | 10 | 11 | 12 | 13 | 14 | 15 |
| 16 | 17 | 18 | 19 | 20 | 21 | 22 |
| 23/30 | 24 | 25 | 26 | 27 | 28 | 29 |

**Qeyd:** *Verginin ödənilmə və bəyannamənin verilmə müddətinin sonuncu günü təqvimdə göy rənglə seçilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda, növbəti iş gününə keçirilmişdir.*

**Ödənilən vergi:**

16 noyabr - «5», «(5)» və «6».
20 noyabr - «(1-1)», «3», «4», «7», «8», «10.1», «10.2» və «10.3».

**«(1-1)» - Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübdür.
Xüsusi notariuslar tərəfindən hər ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablanmalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.

**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün, hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq, qeydiyyatda olduğu vergi orqanına verir və vergini dövlət büdcəsinə ödəyir.

**«4» - Aksiz vergisi:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və vergi orqanına bəyannamə verilməlidir.

**«5» - Əmlak vergisi:** Fiziki şəxslər illik əmlak vergisinin qalan hissəsini noyabr ayının 15-dən gec olmayaraq yerli (bələdiyyə) büdcəyə ödəyirlər.

**«(5)» - Əmlak vergisi:** Əmlak vergisi üzrə hesabat dövrü təqvim ilidir. Əmlak vergisi ödəyicisi olan hüquqi şəxslər cari vergi ödəmələri kimi hər rübün ikinci ayının 15-dən gec olmayaraq əvvəlki ildəki əmlak vergisinin 20 faizi həcmində dövlət büdcəsinə vergi ödəyirlər. Əvvəlki hesabat ilində əmlak vergisi ödəyicisi olmayan və növbəti ildə bu verginin ödəyicisi olan, habelə yeni yaradılmış və əmlak vergisi ödəyicisi olan hüquqi şəxslər əmlakın əldə edildiyi rübdən sonra hər rübün ikinci ayının 15-dən gec olmayaraq həmin əmlaka görə hesablanmalı olan illik əmlak vergisi məbləğinin 20 faizi miqdarında cari vergi ödəmələrini həyata keçirirlər. Cari vergi ödəmələri vergi ili üçün vergi ödəyicisindən tutulan verginin məbləğinə aid edilir.

**«6» - Torpaq vergisi:** Torpaq vergisi üzrə hesabat dövrü təqvim ilidir. İllik torpaq vergisinin qalan hissəsini noyabr ayının 15-dən gec olmayaraq hüquqi şəxslər dövlət büdcəsinə, fiziki şəxslər yerli (bələdiyyə) büdcəyə ödəyirlər.

**«7» - Yol vergisi:** Yol vergisi üçün hesabat dövrü təqvim ayı sayılır. Azərbaycan Respublikasının ərazisində avtomobil benzininin, dizel yanacağının və maye qazın istehsalı ilə məşğul olan fiziki və hüquqi şəxslər yol vergisini aylıq olaraq hesablayır və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq «Yol vergisinin bəyannaməsi»ni vergi orqanına təqdim etməklə vergini dövlət büdcəsinə ödəyirlər.

**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Mədən vergisinin ödəyicisi hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verirlər. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.

**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar onların aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

**«10.2» - Ödəmə mənbəyində tutulan digər vergilər:** Hüquqi şəxslər və fərdi sahibkarlar qeyri-dövlət pensiyaları və ödəmə mənbəyində vergiyə cəlb olunmalı digər ödəmələri verərkən bu gəlirlərdən vergini tutmalı, tutulmuş məbləği gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə köçürməlidirlər.

**«10.3» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.



beynəlxalq panoram

# Fərdi eyniləşdirmə nömrələrinin tətbiqinə başlanılıb

Yaponiya parlamenti ölkədə fərdi eyniləşdirmə nömrələrinin vahid sisteminin yaradılması ilə bağlı qanun layihəsini təsdiqləyib. Sistemdən, vergi hesabından tutmuş fövqəladə vəziyyətlərə qədər, ən müxtəlif məqsədlər üçün istifadə olunacaq. «İctimai təminat və vergi hesabı nömrələri sistemi» adlandırılacaq layihənin məqsədi vətəndaşı bütün həyatı boyunca müşayiət edən vahid nömrə yaratmaqdır.

Qısa şəkildə «Mənim nömrəm» adlandırılan yeni sistemlə hökumət vergi yığımlarını yüksəltməyi və iqtisadi artımı sürətləndirməyi nəzərdə tutur. Nazirlər Kabineti «Mənim nömrəm» sisteminin sayəsində vergi gəlirlərinin ildə 240 mlrd. yen (2 mlrd. ABŞ dolları) artacağını gözləyir. Qeyd edək ki, indiyə qədər Yaponiyada heç vaxt sosial sığorta və ya milli eyniləşdirmə nömrələri olmayıb. «Mənim nömrəm»in dünyada ən genişmiqyaslı sistem olacağı ehtimal edilir.

Oktyabr ayından yerli hakimiyyət orqanları (meriya və ya bələdiyyələr) Yaponiyanın bütün vətəndaşlarına müvafiq nömrələr göndərməyə başlayıblar. Hökumət 2016-cı ildən «Mənim nömrəm» sisteminin vergi qeydiyyatı və sosial ödəmələrin idarə edilməsi məqsədləri üçün istifadə olunmasını istəyir. Gələcəkdə isə vahid nömrənin pasportu, tibbi sığorta polisini, vaksinləmə və başqa sənədlərdə qeydiyyat haqqında məlumatları əvəz etməsi nəzərdə tutulub. 2017-ci ildən başlayaraq, bu nömrədən yaşayış yeri dəyişdikdə kommunal xidmətlərə, banklara və şirkətlərə məlumat ötürülməsi üçün də istifadə ediləcək.



## Xəbər lenti

**Fransa**da kiçik və orta müəssisələrə investisiyaların cəlb olunması məqsədilə verilən iki növ vergi güzəştini Avropa Komissiyası bəyənib. Güzəştlər sərvət vergisini, eləcə də kiçik və orta biznes üçün investisiyanı əhatə edir.

**Ədalətli Vergi Şəbəkəsi**nin (Tax Justice Network) hesabatına görə, beynəlxalq səviyyədə vergidən yayınma ilə mübarizədə irəliləyiş olmadığından həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələr vergi daxilolmalarında böyük itki ilə üzləşirlər. İri transmilli şirkətlər böyük mənfəət əldə etdikləri ölkələrdə vergidən yayınmaq üçün hələ də beynəlxalq vergi qaydalarından istifadə edirlər. 2012-ci ildə ABŞ-ın transmilli biznes strukturları ən azından 700 milyard dollar gəliri korporativ gəlir vergisindən yayındırıblar.

**Almaniya**nın Maliyyə Nazirliyinin bəyanatında bildirilir ki, 2016-cı ildə hökumətin yığacağı vergilər əvvəllər nəzərdə tutulduğundan az olacaq. Hökumət 628,2 milyard avro vergi yığmağı proqnozlaşdırsa da, indi bu rəqəm 5,2 milyard avro azaldılıb.

**Yunanıstan**ın dövlət gəlirləri üzrə baş katibi vergi orqanı əməkdaşlarına xatırladıb ki, hazırkı qanunvericilik fərdi vergi ödəyicilərinə aid bəyan edilməmiş bütün gəlirlərin 33 faizlə vergiyə cəlb olunmasını tələb edir. Bu mülahizəyə əsasən, bank depozitlərindən 33 faiz vergi çıxılması zərurəti yaranır.

**Çili**də aparılan vergi islahatları gəlirlərin bölüşdürülməsinə müsbət təsir göstərərək vergi sisteminin «ədalətliliyini» yüksəldib - Dünya Bankının yeni hesabatında ümumi rəy belədir.

**Ukrayna** hökumətinə makroiqtisadi sabitliyə nail olmaq üçün Dünya Bankı tərəfindən vergi islahatı çərçivəsində vergilərin azaldılmasına ehtiyatla yanaşılması tövsiyə edilib.

**Rusiya** hökuməti iri biznesin dəstəklənməsinə istiqamətlənmiş daha bir antiböhran tədbiri görmək niyyətindədir. ƏDV-nin güzəştlə qaytarılması üçün müəyyən olunmuş həddin 30 faiz azaldılacağı gözlənilir. Hazırda müəssisələr kameral yoxlamanın nəticələrini gözləmədən və bank zəmanəti təqdim etmədən ƏDV-ni yalnız o vaxt operativ şəkildə qaytara bilərlər ki, ödənilmiş vergilərin (ƏDV, aksizlər, gəlir və mədən vergisi) məbləği üç təqvim ili üzrə 10 mlrd. rubldan artıq olsun. 2017-ci ildən isə bu güzəşt həddi 7 mlrd. rubla qədər azaldılacaq.

Xarici ölkələrin təcrübəsi

# Polşa Respublikasının vergi sistemi: *əlavə dəyər vergisi*



**Polşada əlavə dəyər vergisi ödəyicilərinin (ƏDV) xüsusi çəkisi 13,8% təşkil edir. Burada istehsal və paylanma proseslərinin bütün mərhələlərində ƏDV tutulur. Mal və ya xidmətlər əldə olunan vaxt ödənilən vergi onların satışı zamanı ödənilən vergidən çıxılır.**

***Vergi ödəyiciləri***

Fəaliyyətinin məqsədi və nəticələrindən asılı olmayaraq, müstəqil şəkildə iqtisadi fəaliyyətlə məşğul olan hüquqi və fiziki şəxs və ya hüquqi şəxs olmayan hər hansı bir müəssisə vergi ödəyicisi ola bilər. İqtisadi fəaliyyət isə mineral ehtiyatların istismarı, kənd təsərrüfatı işləri və peşəkarların fəaliyyəti də daxil olmaqla istehsalçıların, ticarətçilərin və xidmət göstərən şəxslərin göstərdikləri bütün fəaliyyətləri əhatə edir. Birdəfəlik fəaliyyətlər o halda vergiyə cəlb olunur ki, mütəmadi fəaliyyət göstərmək niyyəti qeydə alınsın. Davamlı əsasda gəlir əldə edilməsi məqsədilə istifadə olunan maddi və qeyri-maddi əmlakın istismarı da iqtisadi fəaliyyətə aid edilir.

ƏDV məqsədləri üçün məcburi qeydiyyatdankeçmə üzrə minimum illik dövriyyə 42.000 ABŞ dolları təşkil edir.

***Vergiyə cəlb olunan əməliyyatlar***

Polşada vergiyə cəlb olunan əməliyyatlar aşağıdakılardır:

- malların və xidmətlərin Polşada istehlak məqsədilə təchizatı;
- malların idxal və ixracı;
- malların Polşada istehlakı məqsədilə Avropa Birliyi daxilində əldə olunması;
- malların Avropa Birliyi daxilində təchiz edilməsi.

Vergiyə cəlb olunan məbləğ, ƏDV istisna olmaqla, təchizat üçün ödənilən məbləğ hesab edilir. Həmin məbləğ natura şəklində ödənilmişdirsə, vergiyə cəlb olunan məbləğ eyni ərazidə və ya eyni bazarda fəaliyyətin göstərildiyi gün mövcud olan qiymətlərin ƏDV qədər azaldılması əsasında hesablanır.

İdxal olunan mallar üzrə vergiyə cəlb edilən məbləğ onların gömrük dəyəri ilə ödənilmiş gömrük rüsumları və aksizlərin cəminə bərabərdir.

***Dərəcələr***

Polşada ƏDV-nin standart dərəcəsi 23%-dir. Yeyinti məhsullarına, kitab, qəzet və jurnalların bəzi növlərinə, sağlamlıqla bağlı bir sıra məhsullara, kənd və meşə təsərrüfatı və sosial mənzil hesab edilən yaşayış əmlakının tikintisi, bərpası və dəyişdirilməsi ilə bağlı xidmətlərə daha aşağı dərəcə - 8% tətbiq edilir.

İxrac, malların Avropa Birliyi daxilində təchizatı, bəzi beynəlxalq sərnişindaşıma xidmətləri (avtomobillə sərnişindaşıma və malların Birlik xaricinə daşınması istisna olmaqla) və beynəlxalq daşınma ilə bağlı dəniz limanlarında göstərilən bəzi xidmətlərə ƏDV-nin sıfır (0) dərəcəsi tətbiq edilir. Kitab və dövri nəşrlərin təchizatına azaldılmış dərəcə - 5% tətbiq edilir.

***Qeyri-rezidentlər***

Polşada vergiyə cəlb olunan əməliyyatlar həyata keçirən qeyri-rezident sahibkarlar eyni qaydada vergiyə cəlb edilir və onların eyni qaydada ƏDV qeydiyyatından keçməsi tələb olunur. Əcnəbi sahibkarlar Polşada malların və xidmətlərin əldə olunmasına görə ödədikləri ƏDV-nin əvəzləşdirilməsini tələb edə bilərlər. Əvəzləşdirmə hüququ Polşada iş yeri olmayan qeyri-rezidentə o şərtlə təqdim edilir ki, Polşada ƏDV qeydiyyatında olmasın, rezidenti olduğu ölkədə ƏDV və ya oxşar vergilər üzrə qeydiyyatda olsun, Polşada vergiyə cəlb edilən təchizatla məşğul olmasın (müəyyən istisnalar mövcuddur) və sahibkarın rezidenti olduğu ölkənin qanunvericiliyi Polşa sahibkarlarına ƏDV-ni əvəzləşdirmək hüququ vermiş olsun.

| Polşada ƏDV-dən azadolmalar | |
|---|---|
| poçt xidmətləri | mədəniyyət |
| lotereya və mərc oyunları üzrə xidmətlər | incəsənət və idmanla bağlı xidmətlər |
| texnologiyanın inkişafı | səhiyyə xidmətləri |
| maliyyə xidmətləri | elm, tədris |



*İcmalı Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsi təqdim edib*

krossvord



**Yuxarıdan aşağı:** 1.Memarlıq termini. Qapı və ya pəncərəni iki yerə bölən üfüqi və ya şaquli hissə; 2.Zərb aləti; 3.Çində etiksiyasi təlim; 4.Səhralarda küləyin təsiri altında sovrulan qum təpəsi; 5.Uilyam Şekspirin məşhur faciəsindən personaj; 6.Zaqatala rayonunda kənd; 9.Sümüklü balıq növü; 13.Zinət əşyalarında istifadə olunan bəzək, daş-qaş (mineral); 15.İngilis yazıçısının soyadı. Daha çox «Alisa möcüzələr ölkəsində» əsəri ilə tanınır; 16.Juzun xanı, Qazaxıstanın azadlıq və müstəqillik simvolu; 17.Rusiya Federasiyasının Kemerevo vilayətində çay; 18.Türkiyə Cümhuriyyətinin paytaxtı; 20.Dəniz nəqliyyat vasitəsi; 21.Balıqçıların istifadə etdikləri alət.

**Soldan sağa:** 1.Pakistanın paytaxtı; 5.Zirehli texnika əleyhinə qumbaraatan; 7.Pravoslav kilsəsinin yüksək ruhani rütbəsini daşıyan şəxs; 8.Bəstəkar, Azərbaycanın xalq artisti. Məşhur mahnıların müəllifidir, bir sıra filmlərə musiqi bəstələyib; 10.Türk qadın adı; 11.ABŞ-da ştat; 12.Vyetnamın paytaxtı. Adı «çaylar arası şəhər» və ya «çaylar əhatə edilən yer» mənasını verir; 14.Siyənəkkimilər ailəsinə mənsub xırda balıq növü; 19.Kart oyunu; 21.Şəki rayonunda şəhər tipli qəsəbə. Əvvəlki adı Orconikidze olub; 22.Litvanın pul vahidi; 23.Zevsin doqquz qızından ən böyüyü və ən ağıllısı, epik poeziya muzası. Adı «gözəlsəsli» mənasını verir; 24.Klassik Azərbaycan ədəbiyyatında obraz - sevgili, dost, yoldaş mənaları verir; 25.XV əsrdən istifadə olunmağa başlanmış yelkənli gəmi.



*«Balıqçının sevinci». Vaqif Ucatay*

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Bülbül; 2.Rubikon; 3.İsrar; 4.Tunika; 5.Moeza; 6.Libero; 9.Anje; 13.Kent; 15.Viterit; 16.Mehrab; 17.Etalon; 18.Berinq *(Vitus)*; 20.Dəyər; 21.Küvye *(Jorj)*. **Soldan sağa:** 1.Barrister; 5.Mil; 7.Labirint; 8.Kerb; 10.Ülkər; 11.Kentavr; 12.Oniks; 14.Heyva; 19.Erdenet; 21.Ketle *(Adolf)*; 22.Röya; 23.Əliverdi; 24.Bor; 25.Bundestaq.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi:
Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor:
Anar Əliyev
anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini:
Məti Osmanoğlu
redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan:
AZ 1141, Bakı ş.,
Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon:
012 403 87 89
012 403 87 95
(faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

Tiraj: 14000

idman

# «Synergy Baku»nun heyəti yenilənib



Azərbaycanın kontinental velosiped komandası «Synergy Baku»nun 2016-cı il üçün ilkin heyəti açıqlanıb. Ötən illə müqayisədə komandanın tərkibində müəyyən dəyişikliklər edilib. Belə ki, elit yığma komandamızın üzvü Tural İsgəndərov və avstriyalı Markus Eybeger ilə yeni müqavilə imzalanmayıb. Aqşin İsmayılov isə dağ velosipedi üzrə məşqçilik karyerasına başlaması ilə əlaqədar, şose yarışlarında iştirakını başa vurub.

Diqqət çəkən əsas məqam Azərbaycanın gənclərdən ibarət yığmasının üzvü Kənan Qəhrəmanlının «Synergy Baku»ya cəlb olunmasıdır. Federasiyadan verilən məlumata görə, gənclərdən ibarət yığmamızın daha bir üzvü - Tərlan Məmmədovun da «Synergy Baku» ilə müqavilə imzalaması müzakirə edilir. Bildirilib ki, 2016-cı il üçün açıqlanan 14 nəfərlik ilkin heyət içərisində Azərbaycanın müxtəlif yığma komandalarının şərəfini qoruyan 8 velosipedçi var. Onlar Beynəlxalq Velosipedçilər İttifaqının (UCİ) bayrağı altında keçirilən müxtəlif səviyyəli yarışlarda iştirak etməklə böyük təcrübə toplayır və bu da əsas məqsədlərdən biridir.

«Synergy Baku»nun heyətinə cəlb edilən digər velosipedçilərə gəlincə, xorvatiyalı Matiya Kvasina ölkəsinin fərdi ötüşmə üzrə son çempionudur. Digər xorvatiyalı velosipedçi Yosip Rumaç isə qrup ötüşməsi üzrə ölkəsinin çempionatında 2-ci yeri tutub, həmçinin Xorvatiya yığma komandasının heyətində «Bakı-2015» ilk Avropa Oyunlarının, dünya və Avropa çempionatlarının iştirakçısı olub. Gələn il üçün sifariş edilən Kiril Pozdnyakova gəlincə, 2013-cü ildə «Synergy Baku»nun heyətində uğurlu mövsüm keçirən velosipedçi 2.1 kateqoriyalı çoxgünlük «Tour of China» yürüşünün qalibi olub, sonrakı 2 ildə isə Rusiyanın prokontinental «RusVelo» komandasının heyətində çıxış edib.

Beləliklə, 2016-cı il üçün «Synergy Baku» komandasının heyətində Elçin Əsədov, Maksim Averin, Elgün Əlizadə, Ənvər Asanov, İsmayıl İlyasov, Samir Cəbrayılov, Kənan Qəhrəmanlı, Tərlan Məmmədov (hamısı Azərbaycan), Matiya Kvasina, Matey Müqerli, Yosip Rumaç (hər üçü Xorvatiya), Aleksandr Surutkoviç (Ukrayna), Kiril Pozdnakov (Rusiya) və İoannis Tamuridis (Yunanıstan) yer alıblar.

# Azərbaycan şahmatçıları Avropa çempionatında



İslandiyanın paytaxtı Reykyavikdə keçirilən şahmat üzrə komandalararası Avropa çempionatı davam edir. İlk turda Sloveniya komandasına 3:1 hesabı ilə qalib gələn kişi şahmatçılardan ibarət Azərbaycan millisi ikinci turda da Danimarka yığmasını məğlub edib - 3,5:0,5. Üçüncü turda isə milli komandamız Ukrayna yığmasını 2,5:1,5 hesabı ilə məğlub edib.

Qadınlardan ibarət Azərbaycan yığması isə ilk turda Belçika komandasını 3:1 hesabı ilə məğlub etsə də üçüncü turda Latviya komandasına 1,5:2,5 hesabı ilə uduzub. Dördüncü turda kişilərdən ibarət komandamız Türkiyə, qadınlardan ibarət millimiz isə Norveç yığmasını sınağa çəkəcək. Xatırladaq ki, çempionatda 36 kişi və 30 qadın komandası mübarizə aparır.

# Raul futbola «əlvida» dedi



Bir vaxtlar İspaniya millisi və Madridin «Real» klubunda forma geyən, hazırda isə Şimalı Amerika futbol liqasının «Nyu-York Kosmos» klubunda çıxış edən Raul Qonzales vida matçına çıxıb. İspaniyalı ulduzun 90 dəqiqə forma geydiyi final oyununda komandası «Ottava Fyuri» klubuna 3:2 hesabı ilə qalib gələrək çempionluq tituluna sahib olub. Qeyd edək ki, karyerasının böyük bir hissəsini «Real»da keçirən 38 yaşlı forvard Madrid klubunun tarixində ən məhsuldar hücumçu kimi yadda qalıb.

# Benzema «Real»dan qovula bilər



Fransa millisinin və İspaniyanın «Real» Madrid klubunun ulduz futbolçusu Karim Benzema doğma klubundan qovula bilər. İspaniya mətbuatının yaydığı məlumata görə, hücumçunun şantaj məsələsində günahı təsdiqlənsə, onunla müqavilə birtərəfli şəkildə pozulacaq. Qeyd edək ki, Benzema Fransa millisində komanda yoldaşı olan Matyu Valbuenanı şantaj etməkdə ittiham olunur. Hazırda məhkəmə tərəfindən araşdırılan işin təsdiq edilməsi halında, klub prezidenti Florentino Peres onu komandadan uzaqlaşdıracaq.

mozaika

texnologiya

# Ekoloji biznes mərkəzi



İspaniyanın Barselona şəhərində «Cloud 9» studiyasının memarlarının layihəsi ilə yeni biznes mərkəzi ucaldılıb. Binanın yaşıl rəngi onun ekoloji mahiyyətinə işarə edir. Tikintidə çoxsaylı müasir texnologiyalar tətbiq olunub və bu, elektrik enerjisindən istifadənin maksimim effektivliyinin təmin edilməsinə, eləcə də karbon qazının tullantılarının atmosferə atılmasının qarşısının alınmasına xidmət edir.

Binanın yuxarı mərtəbələri iri şirkətlərə, 3-cü və 4-cü mərtəbələr isə kiçik firmalara icarəyə verilib. İkinci mərtəbə ictimai zona və tamaşaçı zalı üçün nəzərdə tutulub. Burada keçirilən müxtəlif kurslar şəhər sakinləri üçün tam açıqdır. Ziyarətçilər həm də birinci mərtəbədə təşkil olunan sərgi və seminarlarda iştirak edə bilərlər.

maraqlı

# Dünyanın ən kiçik şəhəri

Dünyanın ən kiçik şəhərləri siyahısında birinci yeri ABŞ-ın Buford şəhərciyi tutur. Burada cəmi bir nəfər yaşayır. Həmin şəxs eyni zamanda şəhərin meri vəzifəsini icra edir. Əhalisi 17 nəfərdən ibarət olan Xorvatiyanın Xum şəhəri siyahıda ikinci yerdə, əhalisi 20 nəfər olan Çexiyanın Rabşteyn şəhəri üçüncü yerdə qərarlaşıb. Dördüncü yerdə isə Bolqarıstanın Melnik şəhəridir. Bu şəhərdə nisbətən çox adam - 390 nəfər yaşayır.

Reytinqdə beşinci yeri Rusiyanın Çekalin şəhəri tutur. Siyahıyaalmaya görə, burada 992 nəfər qeydə alınıb. Halbuki 1956-cı ildə bu şəhərdə 2008 nəfər yaşayıb.

faydalı

# Evdə lazım olar

- Teflon örtüklü tavalar evdar xanımların ən sevimli mətbəx əşyalarındandır. İstifadə üçün çox rahat olmağı ilə yanaşı, bu tavalar həm də xüsusi qulluq tələb edir. Yadda saxlayın ki...
- Teflon qabları təmizləyərkən yalnız yumşaq süngərdən istifadə edilməlidir.
- Metal süngər və ya cilalayıcı vasitələrdən istifadə etmək olmaz, çünki onlar teflon örtüyü zədələyirlər. Zədələnmiş qabda yemək bişirildikdə isə xörəyə zəhərli plastik turşu daxil olur.
- Əgər tavada yanmış yağdan qalın qat əmələ gəlibsə, onu xəmir üçün olan qabartma tozu vasitəsilə təmizləyə bilərsiniz. Bunun üçün tavaya bir az su və 1-2 xörək qaşığı qabartma tozu əlavə edin, odun üstünə qoyub qaynadın. Soyuyandan sonra tavanı yumşaq süngərlə təmizləyin.
- Teflon örtüklü qabı qaynar halda soyuq suyun altına qoymaq olmaz. Əks halda tavanı yanmaqdan qoruyan qat kəskin temperatur dəyişməsi nəticəsində çatlayıb sıradan çıxa bilər.

tarixdə bu həftə




Əsrlər boyu böyük mərhələlərdən keçib tarixi müstəqilliyinə qovuşan Azərbaycan xalqının qarşısında ötən əsrin 90-cı illərində dövlət təsisatlarının yaradılması, hüquqi və demokratik dövlət quruculuğu bütün zərurəti ilə dururdu. Bunu isə xalqın iradəsini ifadə edən Konstitusiya olmadan etmək mümkün deyildi. Məhz bu amili nəzərə alan ümummilli lider Heydər Əliyevin müəllifliyi ilə noyabrın 12-də ümumxalq səsverməsi ilə müstəqil Azərbaycanın ilk Konstitusiyası qəbul edildi.

Konstitusiya - dövlətin ali qanunudur, ali hüquqi qüvvəyə malikdir və həmin dövlətin siyasi, hüquqi və iqtisadi sistemlərinin əsaslarını təsbit edir, vətəndaşların hüquq və azadlıqlarını elan edir və zəmanət verir. Konstitusiya sözünün hərfi mənası «qurmaq, yaratmaq, əsasını qoymaq» deməkdir.

Konstitusiya dövlətin bir fenomen kimi mahiyyətini açıqlayan, qanunvericilik, icra və məhkəmə orqanlarının funksiyalarını əks etdirən, cəmiyyət, şəxsiyyət və dövlət arasındakı qarşılıqlı münasibətləri müəyyən edən ən yüksək hüquqi qüvvəyə malik hüquqi sənəddir.

Azərbaycanın ilk Konstitusiyası dövlət hakimiyyətinin hakimiyyət qollarının bölgüsü prinsipi əsasında təşkil olunduğunu müəyyən etdi. Konstitusiyanın 158 maddəsindən 57-si və üç fəsildən birində insan hüquq və azadlıqları təsbit edilir ki, bu da gənc, müstəqil Azərbaycanın demokratik və hüquqi cəmiyyət qurmaq məramında olduğunu təsdiqləyir.

***QEYD:*** Konstitusiyalar iki əsas növə bölünür: yazılı və yazılmamış.

Yazılı konstitusiyalar ya vahid normativ akt, ya da bir neçə konstitusiya qanununun məcmusudur. Yazılmamış konstitusiyalarda isə ali qanun normalar, çoxlu sayda akt, həmçinin adətlərdə təsbit edilib. Dünyada Konstitusiya ilk dəfə 1215-ci ildə İngiltərədə qəbul olunub. İlk yazılı ali qanun isə 1787-ci ildə qəbul edilən və 1789-cu ildən bu günə kimi qüvvədə olan ABŞ Konstitusiyasıdır.

rekordlar

# Qatar sürəti ilə...

Fransanın 32 yaşlı sakini Fransua Jissin velosipedlə saatda 333 kilometr sürət yığaraq yeni rekorda imza atıb. O, bu uğura özünün quraşdırdığı reaktiv velosipedlə nail olub. Rekord Fransanın cənubunda yerləşən və vaxtilə Formula-1 yarışlarının keçirildiyi Marsel yaxınlığındakı «Pol Rikar» trasında qeydə alınıb. Bu sürəti yığmaq üçün Jissiyə beş saniyədən də az vaxt lazım gəlib.

Rekordçu velosipedi, demək olar ki, yenidən qurduğunu deyir. Onun sözlərinə görə, velosipedin raması İspaniyada yığılıb, şinlər isə fransız kompaniyası «Mişlen»in mühəndisləri tərəfindən hazırlanıb. Əsas diqqət isə 90 faizlik hidrogen peroksidi ilə işləyən 500 at gücünə malik mühərrikə yönəldilib.

İki saniyədən də tez bir zaman ərzində saatda 400 kilometrə qədər sürət yığmaq niyyətində olduğunu deyən fransalı bunun üçün sponsor axtardığını qeyd edib. F.Jissin gələn ilin may ayında «Pol Rikar» trasında öz rekordunu yeniləmək niyyətində olduğunu da vurğulayıb.

## Müdriklər deyib ki...

*«Uğurun çox sadə bir sirri var: heç vaxt ruhdan düşməmək».*

*Ernest Heminquey (1899-1961)*

